# Vüqar Məmmədov millət vəkili olmaq iddiasını açıqladı


SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№18 (3309) 14 May / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Əhməd Əhmədovla bağlı ekspertiza rəyi açıqlandı

# Polkovnik-leytenantla sabiq rektor arasında qalmaqal

Nazim Əmirov Abel Məhərrəmovu ona məxsus torpaq sahəsini ələ keçirməkdə ittiham edir



## Gürcüstan və Ermənistanda baş verən olayların arxasında hansı qüvvələr dayanır?

5

GÜNÜN NƏBZİ

Aktual



### “Narkomaniya artıq dövlət təhlükəsizliyimizi təhdid edir”

Tahir Kərimli: “Bir sıra şəxslərin narkomaniyanı himayə etməsi nəticəsində yayılma arealı genişlənir”

6

MEDİA

### XİN rəhbərlərinin Almatı görüşü hansı nəticələrlə yekunlaşdı?

Elxan Şahinoğlu: "Azərbaycanla Ermənistan arasında sülh sazişi üçün zaman hələ tam yetişməyib"

8

Söhbət

### “Əsasən problemli ailələrin uşaqları narkotikə meyl edirlər”

Tanınmış yazıçı-publisist Şəhla Ağbulud: “Yeniyetmə və gənclər bilməlidir ki, bu yolun sonu əzablı ölümdür”

12

Cəmiyyət

### Abşeron sakini “Kapital Bank”dan şikayətçidir

Deyir ki, 5 500 manat kredit götürüb, 19 min manat ödəniş edib, bank hələ də borclu olduğunu bildirir...

4

Fakt

### Masallıda şok dələduzluq faktı

“20 Yanvar”dakı binanı göstərib, “şərikli tikirik” dedi, ev almaq adı ilə işçisinin 30 min manatını ələ keçirdi

7

Müsahibə



### “Heç kim Saakaşvilini hakimiyyətdən qovmadı”

Hüseyn Yusubov: “Gürcüstan vətəndaşları Saakaşvili iqtidarını seçimlə dəyişdirdi”

3

Siyasət



### “Azərbaycan bizim ata-baba yurdumuzdur”

**Ötüken Senger:** “İlk xarici səfərimizi əcdadlarımızın torpağına etmək niyyətindəyik”

5

Baxış

## Papaq nə üçün şərəf rəmzi hesab olunur?

Və yaxud sələflərimiz XX əsrdə bağışlanılmaz səhvlər etdilərsə də, hər halda çoxu gəzdirdikləri papaqlara layiq olublar...

Hacı Zeynalabdin Tağıyevin ordenli, medallı böyük portretini hamı görüb. Onun mülki rütbəsi ordunun general-leytenantına bərabər idi. Əcəldən aman olsa “millət atası” kimi şöhrət qazanmış hacının ordenlərindən, boynundan sallanmış "Müqəddəs Anna" xaçından da danışacağıq. Hələlik isə o rəhmətliyin rəsmi vis-mundirindən, başına qoyduğu ”əmiri” adlanan papağından söhbət açaq...

11

Cəmiyyət

## “Maşınqayırma” kollecini bitirib, Bakı Sağlamlıq Mərkəzində cərrahlıq edir...

Bakı şəhəri, Nizami rayonu, C.Naxçıvanski 54 A, mənzil 48-də yaşayan Şabanov Camal Qafur oğlu tərəfindən “Hürriyyət” qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Bakı Sağlamlıq Mərkəzində işləyən Alxasov Hüseyn adlı həkim onun əməliyyatını düzgün etməyib: “Mən, Şabanov Camal Qafur oğlu, yazaraq bildirirəm ki, şəkər xəstəsiyəm, daimi müalicədəyəm. Həmçinin, damar xəstəliyim də var. 28 fevral, 2024-ci ildə Bakı Sağlamlıq Mərkəzində Alxasov Hüseyn adlı həkim məni əməliyyat etdi...

4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№18 (3309) 14 May / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik


*Əyləncə səhifəsi*

## Mayk Tayson özündən 30 yaş kiçik idmançı ilə döyüşə hazırlaşır

**Qarşıda bütün boks həvəskarlarının səbirsizliklə gözlədiyi möhtəşəm döyüş var. Əfsanəvi boksçu Mayk Tayson iyulda Ceyk Pol ilə qarşılaşacaq və o, döyüşə çox ciddi yanaşır.**



Lent.az-ın xarici mediaya istinadən məlumatına görə, məşhur boksçu ən yaxşı formada olmaq üçün nələrdən imtina etməli olduğunu danışıb.

İyulun 20-də Ceyk Pol və Mayk Tayson Texasda görüşəcəklər. Hər iki döyüşçü vicdanla döyüşə hazırlaşır və sosial şəbəkələrdə öz gedişləri və hazırkı forması haqqında məlumat paylaşırlar.

Təcrübəli boksçu "Instagram" profilində pərəstişkarlarının Netflix platformasında izləyə biləcəkləri bu qala gecənin tədbirini rəsmən elan edən poster yerləşdirib. Mayk Tayson yenidən rinqə çıxacağını deyəndə zarafat etmədiyini vurğulayıb.

Fightsports.tv-yə müsahibə verən 57 yaşlı idmançı özündən qat-qat gənc rəqiblə döyüşə çox ciddi yanaşdığını və hazırlıq zamanı onun performansına mənfi təsir edəcək şeylərdən qaçdığını bildirib.

"İndi mən daha intizamlı həyat sürürəm. Altı həftədir ki, marixuana çəkmirəm və həmin müddətdə cinsi əlaqədə olmuram", - əfsanəvi boksçu deyib.

Az adam gözləyirdi ki, Mayk Tayson bu yaşında yenidən rinqə çıxmağa qərar verəcək. Son döyüşü 2020-ci ildə Roy Cons ilə heç-heçə başa çatan amerikalı boksçu, son üç döyüşündə Neyt Dias, Andre Auqusto və Rayan Burlandı məğlub edərək qalib gələn 27 yaşlı nüfuzlu şəxsin çağırışını qəbul edib.

# Qərb mediasından azərbaycanlı milyarder haqda sensasion iddia



## Vahid Ələkbərovun sərvətinin böyük hissəsini Rusiyadan çıxardığı, gizli yerdə saxladığı iddia olunur

**Rusiyanın ən varlı adamlarının sərvəti təxminən 350 milyard dollardır. Lakin bu ölkənin Ukraynaya genişmiqyaslı müdaxiləsindən sonra rus oliqarxları artıq Qərbdə xoş qarşılanmayıb.**

"Bloomberg" yazır ki, bəzi zəngin insanlar Qərbdə ailə vəsaitlərini qoruyub saxlamağın yollarını axtarır, digərləri onları Birləşmiş Ərəb Əmirlikləri kimi dost ölkələrə köçürməyə və ya son nəticədə Rusiyadan köçürməyə çalışırlar ki, bunu da edənlərin çoxu sanksiyalara məruz qalanlardır.

### Rusiyaya bu pullar lazımdır

Bu sərvətlərin taleyi Rusiya üçün ciddi nəticələrə səbəb olur, çünki dünyanın qalan hissəsindən böyük ölçüdə ayrılır. 26 rusiyalının ümumi sərvəti təxminən 350 milyard dollardır. Onların orta yaşı 63-dür, bu o deməkdir ki, gələcək onilliklərdə sərvətlərini necə və hara köçürməyə qərar verəcəkləri iqtisadiyyata və müxtəlif biznes sektorlarına təsir edəcək.

Bəzi milyarderlər, məsələn, gübrə istehsalçısı Andrey Quryev və neft maqnatı Vahid Ələkbərov sərvətlərinin böyük hissəsini gizli yerlərdə nağd pul şəklində saxlayırlar.

Varlı ruslara xidmət edən dubaylı hüquqşünas Darya Nevskayanın sözlərinə görə, meqa zənginlərin öz sərvətlərini necə köçürməyi planlaşdırdıqları aydın deyil və ümumi tendensiya yoxdur. Telekommunikasiya və daşınmaz əmlak maqnatı Vladimir Yevtuşenkovun holdinqini qorumaq üçün aktivlərini oğluna ötürdüyü kimi, sanksiyalar bəzi hallarda prosesi sürətləndirib.

ASB Consulting Groupun idarəedici tərəfdaşı Roman Marqulis deyir ki, Moskva firması vərəsəlik fondlarının yaradılması üçün hər ay 10-15 müraciət alır və son iki ildə onların sayı bir neçə dəfə artıb. Xaricdən qoyulan sanksiyalar və aktivlərin dondurulması qorxusu müraciəti artırır.

Marqulis deyir ki, maraqlananlardan yalnız bir neçəsi fond yaratmağı bacarıb. Bundan əlavə, Rusiyanın vergi rezidenti olmayan varislər 30 faiz miras vergisi ödəməlidirlər ki, bu da xaricdə yaşayan insanlar üçün bu strukturları daha az cəlbedici edir.

### Qeyri-rəsmi münasibətlər

Rusiya onun biznes mühitinin Putin dövründə yaranan qeyri-rəsmi razılaşma və təminatlardan asılı olması ilə seçilir. O, hər hansı bir məhrumiyyət və ya milliləşdirmə planının olmadığını desə də, aktivlərin müsadirə olunmasının qarşısını almaq üçün səlahiyyətlilərlə yaxşı münasibətlərin olması vacibdir.

Ötən il prokurorlar aktivlərin milliləşdirilməsi ilə bağlı 2022-ci ilə nisbətən təxminən beş dəfə çox iş qaldırıblar. Fevral ayında regional məhkəmə Rusiyanın ferroərinti istehsalının təqribən 80 faizini təşkil edən və 1990-cı illərin əvvəllərindən sahibkar Yuri Antipovun ailəsi və onun biznes tərəfdaşı tərəfindən idarə olunan qrupdan üç zavodun dövlətə təhvil verilməsi barədə qərar çıxarıb.

## Bu ölkədə kişilərdən hamiləlik testi tələb olunacaq

**Yeni qaydalara əsasən, bundan sonra Böyük Britaniyada cərrahi əməliyyat etdirməyə hazırlaşan kişilərdən hamiləlik testi tələb olunacaq.**





Lent.az-ın xarici mediaya istinadən xəbərinə görə, buna səbəb transgenderlərdən birbaşa onun əvvəllər hansı cinsə mənsub olmasını soruşmağın etiketdən kənar hesab edilməsidir.

Britaniyada cinsini dəyişib kişi olan qadınlar bir qayda olaraq analıq rəhmlərini ləğv etdirmirlər. Bu gələcəkdə onların övlad dünyaya gətirməsini istisna etmir. Britaniyada kişi olduqdan sonra uşaq doğan transgenderlərin sayı az deyil.

İndi bu ölkədə pasientdən "siz anadan olarkən sizi hansı cinsə aid hesab ediblər" sualı verilir. Lakin şəxs bu suala cavab verməmək hüququna sahibdur. Elə buna görə də bundan sonra kişilərdən hamiləlik testi tələb olunacaq.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Vüqar Məmmədov millət vəkili olmaq iddiasını açıqladı

### Baş redaktor yenidən 25 saylı Nizami ikinci seçki dairəsindən namizəd olacaq

**Yay aylarında Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilərin keçiriləcəyi gözlənilir. Hurriyyet.az xəbər verir ki, seçkinin tarixi dəqiq bəlli olmasa da, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun bu günlərdə mətbuata açıqlaması Parlament seçkilərinin yaxın bir neçə ay ərzində keçiriləcəyini deməyə əsas verir.**

Hansı ki, MSK sədri bu ilin sonlarına yaxın Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Milli Məclisə seçkilərin önə çəkilməsi təşəbbüsü ilə çıxış edib. Bu səbəbdən də, müxtəlif media orqanları yay aylarında ölkəmizdə Parlament seçkilərinin keçiriləcəyini iddia edir.

Qeyd edək ki, seçkinin tarixi hələ rəsmi şəkildə bəlli olmasa da, artıq millət vəkilli olmaq istəyənlər öz iddialarını ortaya qoyublar. Hətta qeyri-rəsmi olaraq ölkədə seçki prosesinə start verildiyini də qeyd etmək olar. Görünür, məhz bu səbəbdən də "Hürriyyət" qəzetinin, eyniadlı Hurriyyet.az saytının və "Hurriyet TV"-nin baş redaktoru Vüqar Məmmədov da deputat olmaq iddiasını açıqlayıb. Hurriyyet.az-a açıqlama verən baş redaktor deyib ki, o, bu dəfə də 25 saylı Nizami ikinci seçki dairəsindən deputatlığa namizədliyini irəli sürəcək.

Vüqar Məmmədov deyir ki, sakinlərin çoxsaylı müraciəti nəticəsində yenidən məhz 25 saylı Nizami ikinci seçki dairəsindən namizəd olmaq qərarına gəlib. Baş redaktor inanır ki, ötən seçkidə olduğu kimi, bu dəfə də seçicilərin böyük əksəriyyətinin səsini qazana biləcək.

Xatırladaq ki, ötən Parlament seçkiləri zamanı Nizami rayon rəhbərliyinin seçkiyə müdaxiləsi ilə səsvermənin nəticəsi saxtalaşdırılmış və Vüqar Məmmədovun millət vəkili seçilməsinin qarşısı alınmışdı.

**KƏNAN**

# Müdafiə nazirinə yeni müavin təyin edildi

### Müşfiq Məmmədov 6 ay əvvəl general olmuşdu



**Azərbaycanın müdafiə nazirinə müavin - Şəxsi Heyət Baş İdarəsinə yeni rəis təyin olunub. Bu vəzifə general-mayor Müşfiq Məmmədova həvalə olunub.**

Məlumatı Müdafiə Nazirliyi təsdiqləyib. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə general-mayor Müşfiq Məmmədov Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisi vəzifəsinə təyin olunub. Xatırladaq ki, idarənin əvvəlki rəisi hazırda Azərbaycan Ordusunun Baş Qərargah rəisi olan Kərim Vəliyev idi. K.Vəliyev Baş Qərargah rəisi təyin olunduqdan sonra bu vəzifəni general-mayor Elçin Xəlilov icra edib.

Qeyd edək ki, M.Məmmədov bu təyinata qədər Azərbaycanın Türkiyədəki hərbi attaşesi olub.

O, eyni zamanda Azərbaycanın Bolqarıstanda akkreditə olunmuş hərbi attaşesi vəzifəsini də icra edib. M.Məmmədov 2020-ci ildə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qeyd edək ki, Müşfiq Xıdır oğlu Məmmədov ötən ilin noyabr ayında Prezidentin "general-mayor" ali hərbi rütbəsinə layiq gördüyü üç nəfərdən biridir.

# Polkovnik-leytenantla sabiq rektor arasında qalmaqal

### Nazim Əmirov Abel Məhərrəmovu ona məxsus torpaq sahəsini ələ keçirməkdə ittiham edir

**Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, Milli Məclisin üçüncü və dördüncü çağırış deputatı Abel Məhərrəmovun adı keçən torpaq qalmaqalı ilə bağlı məhkəmə çəkişməsi davam edir.**





"Qaynarinfo"nun məlumatına görə, Sumqayıt Apellyasiya Məhkəməsində hakim Fuad Məmmədovun sədrliyi Abel Məhərrəmovu ona məxsus torpaq sahəsinin ələ keçirməkdə ittiham edən ehtiyatda olan polkovnik-leytenant Nazim Əmirovun apellyasiya şikayətinə baxılıb.

Prosesdə sənədlər araşdırılıb, eyni zamanda qərara alınıb ki, növbəti iclasa Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndəsi də dəvət edilsin.

Nazim Əmirov Abel Məhərrəmovla yanaşı onun xanımı Rəhimə Mahmudovanı da məhkəməyə verib. Buna səbəb torpaq sahəsinin Rəhimə Mahmudovanın adına rəsmiləşdirilməsidir.

Qalmaqala gəlincə, Nazim Əmirov 2011-ci ildə Xızının Altıağac qəsəbəsində iki hektar torpaq sahəsi alıb. 2012-ci ildə isə torpaq sahəsinin müəyyən hissəsi Rəhimə Mahmudovanın adına rəsmiləşdirilib. Abel Məhərrəmovun həmin ərazidə dəbdəbəli villasının olduğu bildirilir.

Nazim Əmirov torpaq sahəsinin zəbt edilməsindən xəbər tutduqda qarşı tərəfə ərazinin ona məxsus olduğunu bildirib, sənədləri təqdim edib. Eyni zamanda müvafiq qurumlarda dəqiqləşdirmə aparıb. Məlum olub ki, Nazim Əmirov haqlıdır.

Bundan sonra polkovnik-leytenant məhkəməyə müraciət edib. İşə Xızı Rayon Məhkəməsində baxılıb. Lakin məhkəmə iddianı təmin etməyib. Nazim Əmirov apellyasiya şikayəti verib.

Məlumatlarda o da qeyd edilib ki, polkovnik-leytenant hüquqi müstəvidə mübarizəsinin davam etdirməkdə israrlıdır.

# Baş Prokurorluq Əhməd Əhmədovla bağlı ekspertiza rəyini açıqlayıb

**Baş Prokurorluq bu il fevral ayının 13-də ailəsinin 5 üzvünü qəsdən öldürməkdə şübhəli bilinən Əhməd Əhmədovla bağlı ekspertiza rəyini açıqlayıb.**



Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Xətai Rayon Prokurorluğunda istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs Əhməd Əhmədovun barəsində təyin olunmuş təkrar komission məhkəmə-psixiatrik ekspertizasının rəyinə əsasən, o cinayət əməlini törədən zaman anlaqsız vəziyyətdə olub.

Cinayət işi üzrə toplanmış sübutlar, o cümlədən ilkin və təkrar komission məhkəmə-psixiatrik ekspertizasının rəyləri nəzərə alınaraq təqsirləndirilən şəxs Ə.Əhmədovun cəmiyyət üçün təhlükəli olması müəyyən edildiyindən onun barəsində Xətai rayon prokurorluğunda tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar qəbul olunub.

İbtidai istintaq davam etdirilir.

# "General"ın məhkəməsi başlayır

**Özünü general kimi təqdim edərək dələduzluq etməkdə təqsirləndirilən Mirdaməd Əzizovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb.**

APA xəbər verir ki, iş baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Cinayət işi hakim Rasim Sadıxovun icraatına verilib.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanan cinayət işi üzrə ilkin araşdırmalar zamanı M.Əzizovun özünü BMT tərəfdaşı Beynəlxalq İnsan Hüquqlarının Müdafiə Komitəsinin eksperti, Beynəlxalq informasiya agentliyinin direktoru, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü kimi də təqdim etməsi üzə çıxıb. O, bir sıra xarici ölkələrdə rəsmi səfərlərdə olması barədə məlumatlar yayıb.



Qeyd edək ki, Mirdaməd Əzizov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Onun barəsində həbs qətimkan tədbiri seçilib.

# “Heç kim Saakaşvilini hakimiyyətdən qovmadı...”

Qonşu Gürcüstanda "Xarici təsirin şəffalığı" haqqında qanun layihəsinin Parlamentdə müzakirəyə çıxarılması vətəndaşlar arasında narazılığa səbəb oldu ki, bu da özlüyündə mitinqlər dalğasına çevrildi. Narazılıq səviyyəsinin bu qədər böyüyəcəyinin gözlənilmədiyini desək, doğru olmaz. Çünki illərlə Avropa Birliyinə daxil olmaq üçün idarəçilik standartlarını və səviyyəsini inkişaf etdirməkdə olan qonşu ölkənin üzünə məhz bu qanun layihəsi ucbatından Avropanın qapıları bağlanmaqdadır. Avropa İttifaqına daxil olan bəzi dövlətlər artıq birliyin rəsmisi Cozep Borrelə bu barədə çağırış da etdilər. Bəs, Gürcüstanda baş verənlərin pərdəarxasında hansı məqamlar var? 500 mindən artıq soydaşımızın yaşadığı bu ölkədə baş verəcək istənilən çaxnaşma və dəyişiklik onların vəziyyətinə necə təsir edəcək? Bu və digər suallara aydınlıq gətirmək üçün Gürcüstan Azərbaycanlıları Konqressinin rəhbəri Hüseyn Yusubovla söhbətləşdik.

“Ölkəmizin gələcəyi ilə bağlı ortaq məxrəcə gəlməyi bacarmalıyıq; Gürcüstanda iqtidar və müxalifət bir araya gəlməli, bu məsələləri dialoqla müzakirə etməlidir”



## Hüseyn Yusubov: “Gürcüstan vətəndaşları Saakaşvili iqtidarını seçimlə dəyişdirdi”

***- Hüseyn müəllim, Gürcüstanda nələr baş verir? Həqiqətənmi, bu proseslər MKİ və başqa xarici ölkələrin rolu var?***

- Bilirsiniz, bizim rəsmi dövlət orqanları belə bəyanat paylaşdı ki, 2020-2023-cü illər arasında Qərb ölkələri 2 dəfə Gürcüstanda dövlət çevrilişinə cəhd ediblər. Mən məsələnin nə olub, nə olmadığını bilmirəm. Bu, dövlətin rəsmi mövqeyidirsə, demək, əllərində rəsmi faktlar var ki, bəyan edirlər.

Amma ölkədə gedən proseslər demokratik proseslərdir. Demək olar ki, artıq bir aydır Gürcüstanda mitinqlər gedir. Burada insanlara şərait yaradılır ki, azad şəkildə öz fikirlərinin söyləsinlər.

Dövlət çevrilişləri ilə bağlı isə, bütün ölkələr çalışırlar ki, ölkəyə gələnlərlə ehtiyatlı davransınlar. Mən xatırlayıram ki, Azərbaycan da bu məsələlərdən çox narahat idi və sonra qeyri-hökumət təşkilatlarına dəstək fondu yaratdı və bu pulların axınını dayandırdı. Amma haqq naminə demək lazımdır ki, bu pulların Gürcüstanda demokratiyanın inkişafında çox böyük xidmətləri olub. Kimlərsə nə məqsədlə bundan istifadə edirsə, mən bilmirəm. Bilirsiniz ki, bir il öncə bu qanun layihəsi qəbul olunmuşdu, amma hökumət onu geri çəkmişdi. İndi də bu qanun layihəsi ilə bağlı çox böyük qütbləşmə var. Bu qütbləşmənin olması şəxsən məni narahat edir. Daha yaxşı olardı ki, qarşılıqlı anlaşma olardı. Daha yaxşı olardı ki, tərəflər mövqelərində bir-birinə güzəştə getməyi bacarardılar. Hər bir anlaşmanın ölkəmizin xeyrinə olacağını düşünürəm.

***- Gürcüstanda əhalinin əksəriyyəti “xarici agent” haqda qanunun qəbul edilməsinə qarşı çıxır. Sizcə, bu qədər təzyiq qarşısında hakimiyyəti sözügedən qanunu qəbul etməyə nə vadar edir?***

- Bilirsiniz, iki tərəfin fikirlərini də diqqətlə dinləyəndə görünür ki, qütbləşmədə olan tərəflərin hər ikisi Gürcüstanın gələcəyini Avropada görür. Hər iki tərəf işğalda olan ərazilərin azad olunması arzuları ilə yaşayırlar. Amma Avropaya, NATO-ya aparan yollar barədə onların fərqli baxışları var. Bu da başa düşüləndir, hamı eyni fikirdə ola bilməz. Baxışlar müxtəlifliyi həmişə ola bilər. Amma hər iki tərəfin bəyanları bundan ibarətdir ki, Avropa İttifaqına daxil olaq. Bu, çox böyük iqtisadi blokdur. Orada ölkələrin yaşayış səviyyəsi tamamilə fərqlidir. Eyni zamanda, hər iki tərəf istəyir ki, NATO blokuna daxil olaq. Bu təhlükəsizlik baxımından ölkəmizin ərazi bütövlüyü məsələsinə böyük dəstək olar.

Amma, eyni zamanda, Azərbaycanla bağlı Qarabağ məsələsində Avropanın necə ikili standartlar irəli sürdüyünü gördük. Avropa bu gün də ikili standartlardan çıxış edir. Ermənistanın Azərbaycanla bağlı iddiası yoxdur. Fransa hələ də Qarabağdan danışır. Bizim üç böyük ərazimiz işğal altındadır. Biri yüz il əvvəl ermənilər tərəfindən işğal olunmuş Loru bölgəsidir. İkincisi, Abxaziya, üçüncüsü, Tsxinvali bölgəsidir. Bu bölgələrin azad olunmasını biz NATO-da görürük. Amma, həm də NATO-nun mübahisəli əraziləri olan ölkələri tərkibinə qəbul etmədiyi haqda maddələri olduğunu bilirik. Burada yenə də ikili məqamlarla rastlaşırıq.

Ona görə, ölkəmizin gələcəyi ilə bağlı ortaq məxrəcə gəlməyi bacarmalıyıq. Uzlaşma olmalıdır, bir-birimizi dinləməyi bacarmalıyıq. Gedən proseslərdə xoşuma gəlməyən məqam budur ki, heç kim qarşı tərəfin fikrini dinləmək istəmir. Hamı bir-birinin fikri ilə razılaşa bilməz, amma heç olmasa bir-birinin fikrinə hörmətlə yanaşmalıdır, təhqirlərlə yox.

Gənclərimiz də istəyirlər ki, ölkəmiz Avropa ittifaqının üzvü olsun. Mənim müşahidələrimə əsasən, hər iki tərəf Avropa İttifaqına daxil olmağa cəhd edir. Səhv etmirəmsə, dünən “Avropa Günü” idi, bölgələrdə, rayonlarda bütün bələdiyyələrin küçələri Avropa bayraqları ilə bəzədilmişdi. Bu, hökumətin mövqeyi idi. Məlumdur ki, müxalifət və aktivistlər də Gürcüstanın gələcəyini Avropada görürlər. Ona görə, bir araya gəlmək, bu məsələləri oturub dialoqla müzakirə etmək lazımdır. Parlamentdə bu alınmır. Çünki parlamentdə say baxımından kəskin fərq var. Amma elə başa düşürəm ki, ayrı-ayrı gənclər təşkilatlarında bunu edə, bir dialoq yarada, danışıqlar apara bilərlər. Bir-birinin fikrinə hörmətlə yanaşa bilərlər. Bu da ölkəmizin gələcəyinə xidmət etmiş ola bilər.

Gənclərimiz də istəyirlər ki, ölkəmiz Avropa ittifaqının üzvü olsun. Mənim müşahidələrimə əsasən, hər iki tərəf Avropa İttifaqına daxil olmağa cəhd edir. Səhv etmirəmsə, dünən “Avropa Günü” idi, bölgələrdə, rayonlarda bütün bələdiyyələrin küçələri Avropa bayraqları ilə bəzədilmişdi. Bu, hökumətin mövqeyi idi. Məlumdur ki, müxalifət və aktivistlər də Gürcüstanın gələcəyini Avropada görürlər. Ona görə, bir araya gəlmək, bu məsələləri oturub dialoqla müzakirə etmək lazımdır. Parlamentdə bu alınmır...

***- Gürcüstanda tələbələr də etiraz aksiyalarına qoşulacaqlarını anons etdilər. Qarşıdan yay gəlir, tələbələr də yay tətilinə çıxacaqlar. Ümumiyyətlə, tələbə təbəqəsi yeniliklərin, hakimiyyət dəyişikliklərinin hərəkətverici qüvvəsi olur. Sizcə, Gürcüstanda da bu amil hakimiyyət dəyişikliyinə gətirəcəkmi?***

- Tələbələrin ciddi bir hissəsi onsuz da mitinqlərdə iştirak edirlər. İnşallah, o vaxta qədər bir anlaşma əldə edilər, qarşıdurmalar aradan qalxar. Qütbləşmə ölkəyə heç vaxt xeyir gətirməz. O vaxta qədər anlaşma olar.

***- Belə bir fikir var ki, Saakaşvilinin hakimiyyəti dönəmində Gürcüstanda demokratiya, hüquq və azadlıqlar baxımından azərbaycanlıların vəziyyəti yaxşı idi. Sizcə, “Gürcü Arzusu”nun hakimiyyəti dövründə azərbaycanlıların durumu hansı istiqamətdə dəyişildi?***

- Azərbaycanlılar bu ölkənin tərkib hissəsidir. Ölkədə orta durum nədirsə, azərbaycanlıların durumu da onunla eynidir. Azərbaycanlılar hansısa parametrlərdə kəskin fərqlənmirlər. Əksinə, biz iki ölkənin mühüm bölgəsində - həm Azərbaycanın, həm Ermənistanın sərhəddində yerləşdiyimizə, həm də paytaxta yaxın yerləşdiyimizə görə, ticati anlamda bir çox üstünlüklərimiz var. Və Saakaşvilini də həmin xalq səsvermə ilə yola saldı. Yəni azərbaycanlılar da tərkibində olmaqla, Gürcüstan vətəndaşları bunu etdi. Gürcüstan vətəndaşları Saakaşvili iqtidarını seçimlə dəyişdirdi. Heç kim Saakaşvilini hakimiyyətdən qovmadı, sadəcə, xalq onu seçmədi. Xalq 2012-ci ildə “Gürcü Arzusu”na səs verdi. Səhv etmirəmsə, o seçimin nəticələri 40-ın 60-a nisbəti oldu. Dövlət xalqın iradəsinin ifadəsi deməkdir. Xalq hansı qüvvəni hakimiyyətdə görmək istəyirsə, onu dəstəkləyir. Xalqın seçimlərdə verdiyi mesajı da diqqətlə oxuyan siyasi partiyalar həmişə qazanır.

***- Sizcə, Gürcüstanda hakimiyyət dəyişikliyi baş tutarsa, azərbaycanlıların durumu yaxşıya doğru dəyişə bilərmi?***

- Hansı partiya olur-olsun, hakimiyyət dəyişikliklərinin azərbaycanlıların durumuna pis təsirini gözləmirəm. Azərbaycanlılar bu ölkədə sevilən vətəndaşlardır. Ölkə inkişafının o mərhələsindədir ki, burada heç də vətəndaşlar etnik kimliklərə və yaxud dini mənsubiyyətinə görə sərt dalğalarla qarşılaşmır. Bu bir tərəfi. İkinci tərəfdən Avropa İttifaqı ilə Gürcüstan arasında olan vizasız rejim insanların dolanışığında mühüm rol oynayır. Vizasız rejim olduğuna görə, bizim soydaşlarımız arasında da demək olar ki, hər bir ailədən Avropada işləyən var. Bəzi ailələrdən bir neçə nəfər Avropada işləyir. Bəzi ailələr isə tam şəkildə Avropada işləyirlər. Avropada bəzi şeylər bizim ölkədəkindən çox fərqlidir və bu şeylərin də bizim insanların dolanışığına çox ciddi təsiri var.

Vizasız rejimlə Avropada işləmək məsələsi də təkcə azərbaycanlılara aid deyil, bütün Gürcüstan vətəndaşlarına aiddir. Hamı - həm gürcülər, həm digər xalqlar Avropa ölkələrində iş tapırlar, soydaşlarımız üçün bu, daha asan olur. Çünki Avropa İttifaqı ölkələrində çoxmilyonlu türk qardaşlarımız yaşayırlar. Onlar da bizim insanlarımıza iş tapmağa, yerləşməyə, şərait yaratmağa dəstək olurlar, iş adamlarımıza dəstək olurlar. Bəzən olur ki, həmin ölkələrin qanunlarını bilmədiklərinə görə, qanunları pozurlar, problemlərlə üzləşirlər. Gürcüstan Azərbaycanlıları Konqresi olaraq, bizə də dəfələrlə müraciətlər olunub, Avropadakı dostlarla birlikdə, ya bizim Gürcüstandakı təşkilatlarla birlikdə partnyorlarına müraciət edib, biz vəkillər tapmışıq, eloğlularımızın hüquqlarını qorumuşuq.

**Söhbətləşdi:**
**Ülviyyə ŞÜKÜROVA**



Eldəniz QULİYEV

# Mənəviyyatımıza sahib çıxaq

**Azərbaycan televiziyaları bir-birinin ardınca səviyyəsiz bədii seriallar çəkir, ucuz və əttökən verilişlər yayımlayır.**

Bu filmlər və verilişlər zövqümüzü, ruhumuzu oxşamaq əvəzinə, geniş tamaşaçı auditoriyasına zövqsüzlük, pintilik və bədii tutumdan məhrum bayağı süjetlər təqdim edir. Onlar TV-nin hüdudsuz imkanlarından istifadə edərək, əxlaqımızı, mənəvi dəyərlər sistemimizi qorumaq yerinə, bir çox hallarda açıq zorakılıq tərbiyəsizlik və biganəlik aşılanır. Bir qayda olaraq, bu serial və verilişlərin tam əksəriyyətində ssenarilər, rejissor, operator, rəssam işi, aktyor oyunu, musiqi tərtibatı, montajı və s. özfəaliyyət səviyyəsindədir. Son zamanlar yağışdan sonra artan göbələk kimi çoxalan teleseriallar isə artıq bütün "qırmızı xəttləri" keçiblər.

Nəzərə alaq ki, əsasən qeyri-peşəkarlara həvalə olunan çoxseriyalı bu televiziya filmləri xalqın vəsaiti hesabına çəkilir. Və bu gün heç kəsə sirr deyil ki, bu başabəla filmlərdən kütləvi narazılıq kifayət qədərdi; deməli, ortada ciddi problem var və bu problemi ictimai müzakirəyə çıxartmaq zərurəti də qaçılmazdır...

Bir çox insanlar belə filmləri qəsdən görməzdən gəlir, soruşanda da "mən belə səviyyəsiz filmlərə, verilişlərə baxmıram" deyir. Məncə, "baxmıram", "baxa bilmirəm" və s. bu kimi başdanelələmələr çıxış yolu deyil. Bizlər, bizim pulumuza bizə pislik təlqin edən bu sayaq tele-serialların, o cümlədən TV verilişlərinin BAXIMLI və SƏVİYYƏLİ olmasını tələb etməliyik. Özü də qətiyyətlə! Buna sadəcə, hər birimizin haqqı, hüququ var! Unutmayaq: televiziya efir məkanı hamımızındı və bu məkanını kimsə, ya kimlərsə özəlləşdirə bilməz. Hər evə, hər ailəyə icazəli-icazəsiz girən "qonaq" etik və əxlaqi qaydalara riayət etməyə borcludur. Çünki ortada xalqın mənəvi dəyərlərinin, ləyaqətli yaşam tərzi və ruhunun təcavüzə məruz qoyulması cəhdləri göz önündədir.

Bizlər nəhayət ki, öz taleyimizin laqeyid tamaşaçısından ONUN iştirakçısına çevrilməyə məhkum olduğumuzu dərk etməli, zövqsüzlüyə, əxlaqsızlığa və aşkar şəkildə tamaşaçı hüquqmuzun pozulmasına YOX deməliyik.

# Abşeron sakini "Kapital Bank"dan şikayətçidir

**Bakı şəhəri, Abşeron rayon sakini Abasova Məlahət Abbas qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, oğlunun xarici ölkədə təhsil alması üçün "Kapital Bank"dan 5 500 manat kredit götürüb, 19 min manatdan çox ödəniş etsə də, hələ də hər ay pensiyasından pul tuturlar:**




## Deyir ki, 5 500 manat kredit götürüb, 19 min manat ödəniş edib, bank hələ də borclu olduğunu bildirir...

"Mən, Abasova Məlahət Abbas qızı, Azərbaycanın ərazi bütövlüyü uğrunda 1-ci qrup əlil olmuş Abasov Əli Ağacavad oğlunun həyat yoldaşıyam. Yoldaşım sürən xəstəlikdən bir müddət sonra rəhmətə getdi.

Oğlum 2019-ci ildə 11-ci sinfi bitirmişdi. Oğlumun xarici ölkədə təhsil alması üçün "Kapital Bank"ın Neftçilər filialından 5500 manat kredit götürdüm. 800 AZN isə sığorta pulu ödədim.

Yoldaşım rəhmətə getdikdən sonra səhhətimlə bağlı ciddi problemlər yaşadım və ödənişlərim gecikdi. Daha sonra "Kapital Bank"ın Gənclik filialından Yaşar adlı şəxs mənə bildirdi ki, sizə 10 faiz güzəşt edərik, gəlin 5 illik müqavilə bağlayaq. Kiçik hərflərlə olduğu üçün tam oxuya bilməyib imza atmışam.

Uşaq üçün ayrılmış müavinəti bəzən bütöv şəkildə hesabdan çıxırdılar. Məndən 4 ilə 19 min 164 manat 19 qəpik ödəniş alıblar.

İndi mən hal-hazırda yoldaşım üçün ayrılmış pensiyanı xüsusi şərtlərlə alıram. Bank hər ay müəyyən məbləği hesabımdan çıxır. Ödənişin vaxtı ayın 15-16-na təsadüf etsə də, bank ayın 1-dən zənglər edir. O gündən bu günə kimi hələ də gecikmələrlə pul çıxırlar.

Dəfələrlə bu barədə bir çox yerlərə müraciət etsəm də, şikayətim cavabsız və həll edilməmiş qalıb. 16.12.2024-cu ildə kreditin bitmə vaxtıdır. Bu qədər faiz ödəmək heç bir ölkədə yoxdur.

Mən artıq bu haqsızlıqdan bezmiş. Vətən üçün sağlamlığını, daha sonra həyatını itirmiş bir insanın ailəsini belə sıxışdırmaq olarmı? Özüm xəstəyəm, oğlum hərbi xidmətə hazırlaşır.

Mən bir ana kimi Vətənimizə xeyirli övlad yetişdirirəm. Xahiş edirəm, məmur özbaşınalığına son verilsin. İmkan versinlər aldığımız pensiyamızı iynə-dərmanımıza verə bilək.

Sizin sayt vasitəsilə cənab Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edirəm. Mən onlardan kömək istəyirəm. Bu özbaşınalığın sona yetməsi üçün tapşırıq vermələrini xahiş edirəm.

Bilirəm ki, müraciətlərim Cənab Prezidentə və Birinci vitse-prezidentə çatmayıb. Çatsaydı, imkan verməzdilər ki, qazi ailəsini bu qədər sıxıntı içərisinə salsınlar".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# "Maşınqayırma" kollecini bitirib, Bakı Sağlamlıq Mərkəzində cərrahlıq edir...




**Bakı şəhəri, Nizami rayonu, C.Naxçıvanski 54 A, mənzil 48-də yaşayan Şabanov Camal Qafur oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Bakı Sağlamlıq Mərkəzində işləyən Alxasov Hüseyn adlı həkim onun əməliyyatını düzgün etməyib:**




"Mən, Şabanov Camal Qafur oğlu, yazaraq bildirirəm ki, şəkər xəstəsiyəm, daimi müalicədəyəm. Həmçinin, damar xəstəliyim də var. 28 fevral, 2024-ci ildə Bakı Sağlamlıq Mərkəzində Alxasov Hüseyn adlı həkim məni əməliyyat etdi. Əməliyyat zamanı həkim adı daşıyan bu şəxs damarımı zədələyib. Hal-hazırda ayağımda problemlər bitmir. Əslində, bu əməliyyatı Ruslan Əliyev etməli idi. Lakin həmin gün işi çıxdığından, yerinə Alxasov Hüseyni göndərib.

Öyrəndiyim məlumata əsasən deyim ki, Alxasov Hüseyn "Maşınqayırma" kollecini bitirib. Nə ali savadı, nə də tibbi savadı yoxdur. Amma bu adam Bakı Sağlamlıq Mərkəzində əməliyyatlar keçirir. Bu barədə Prezident Administrasiyasından tutmuş, bir çox qurumlara yazılı müraciət etmişəm".

Məsələ ilə bağlı Bakı Sağlamlıq Mərkəzi ilə əlaqə saxlamağa çalışsaq da, mümkün olmadı.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Gəncə sakini nazirlikdən şikayətçidir, qarşı tərəf isə...

**Gəncə şəhəri, Məhsəti qəsəbə sakini Heydərov Səbuhi Fəxrəddin oğlu tərəfindən Hurriyyet.az saytına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, ona qanunsuz olaraq 1-ci qrup əlillik dərəcəsi verilmir:**




"Mən, Heydərov Səbuhi Fəxrəddin oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Məlumat üçün bildirim ki, 2009-cu ildən 2-ci qrup əlillik pensiyası almışam. 12 il sonra - 2021-ci ildə pensiyam kəsildi. Yenidən müraciət edib, zor-bəla ilə 3-cu qrup əlillik dərəcəsi aldım.

2023-cu ildə isə məndə sağalmayan "aksonal motor" xəstəliyi aşkar olundu. Həkimlər dedilər ki, bütöv bədənin iflic olacaq. Bu səbəbdən də 1-ci qrup əlillik üçün müraciət etdim. Lakin imtina verdilər. Mənim arıqlayıb, ən ağır vəziyyətə düşməyimi istəyirlər ki, 1-ci qrup versinlər.

Diaqnoz sağalmayan və ağrılı acılı şəkildə ölümə apardığını göstərir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adlı qurum, əslində, əhalinin müdafiə edən yox, zülm edən bir qrumdur. Kimin pulu var, adamı var, sağlam insanlar 1-ci qrup əlillik dərcəsi alırlar. Həqiqi iflic xəstələrinə 3-cu qrup verilir.

Hal-hazırda yeriyə bilmirəm, əsanın gücü ilə addımlamağa çalışıram.

Bu xəstəliyin adı, vahiməsi vəziyyətimi daha da ağırlaşdırır. Mən hörmətli nazirimizə sual vermək istəyərəm: siz iflic nədir, bilirsiz? İflic olan yaxınınız var? Müalicəsindən, baxımından xəbəriniz var? Bu qədər insafsız olmayın. Sağlam qohumlarınızla, pulla 1-ci qrup əlillik alan adamlarla bizi bir tutmayın, xahiş edirəm".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətindən bildirdilər ki, Gəncə şəhər sakini Heydərov Səbuhi Faxrəddin oğluna 17.04.2022-ci il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən ümumi səbəbdən 5 il müddətinə üçüncü dərəcə əlillik təyinatı aparılıb və hazırda buna uyğun olaraq müvafiq sosial ödənişlərlə təmin olunur: "Vətəndaşın əlillik dərəcəsinin gücləndirilməsi ilə bağlı tibb müəssisəsi tərəfindən rəsmiləşdirilən forma-88 göndərişlərində diaqnoz və ağırlaşmalar arasında uyğunsuzluq olduğuna görə, onun əlilliyinin gücləndirilməsi mümkün olmayıb.

Buna baxmayaraq, S.Heydərov 24.10.2023 və 19.02.2024-cü il tarixlərdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib. Agentliyin həkim-ekspertlərinin əyani müayinələri zamanı müəyyən edilib ki, vətəndaşın hazırki diaqnoz və ağırlaşmaları əlillik dərəcəsinin gücləndirilməsinə əsas vermir.

Bu səbəbdən də S.Heydərovun üçüncü dərəcə əlillik təyinatı ilə bağlı qərar qüvvədə saxlanılıb".

**Jalə FAMİLQIZI**

# “Azərbaycan bizim ata-baba yurdumuzdur”



## Qars bələdiyyə sədri Ötüken Senger: “Ən qısa zamanda ilk xarici səfərimizi əcdadlarımızın torpağı olan Azərbaycana etmək niyyətindəyik”

31 mart tarixində qardaş Türkiyədə bələdiyyə seçkiləri keçirildi. Ümumiyyətlə, qardaş ölkədə siyasi-ictimai proseslər həmişə Azərbaycan insanının diqqət mərkəzində olub. Təsadüfi deyil ki, xüsusilə də azərbaycanlıların çoxluq təşkil etdiyi İqdır, Qars bölgəsində seçkilərdə hansı partiyanın qələbə qazanacağını ölkəmizdə bir çoxları həyacanlı izləyirdilər.

**“Cümhur İttifaq”ın Qarsdan olan ortaq namizədi, professor Ötüken Sengerin qələbə qazanması hamımızı sevindirdi. Qeyd edim ki, Ötüken Senger Azərbaycan əsillidir. Babaları Azərbaycandan Qarsa köç ediblər. Odur ki, professor Ötüken Sengeri Azərbaycan oxucusuna daha yaxından tanıtmaq üçün müsahibə almışıq.**

***- İlk öncə Sizi Qars Bələdiyyə sədri seçilməyiniz münasibətilə təbrik edirik. İstəyirik ki, əvvəlcə Azərbaycan oxucularına özünüz haqqında məlumat verəsiniz...***

- 04 mart 1978-ci ildə Qarsda anadan olmuşam. 2001-ci ildə Atatürk Universiteti Mühəndislik Fakültəsinin İnşaat Mühəndisliyi ixtisasında təhsil almışam. 2002-ci ildə Qafqaz Universiteti Ərdahan Peşə Məktəbinə müəllim vəzifəsinə təyin olundum. 2004-cü ildə işə başladığım Qafqaz Universitetinin Elm və Texnologiya İnstitutunun Tətbiqi Riyaziyyat şöbəsində 2006-cı ildə magistratura pilləsini bitirmişəm. Doktorantura təhsilinə 2008-ci ildə Atatürk Universiteti Sosial Elmlər İnstitutunun Biznesin idarə edilməsi bölməsinin Rəqəmsal Metodlar bölməsində başladım və 2011-ci ildə bitirdim. Həmin il Qafqaz Universiteti Sosial Elmlər Peşə Məktəbinə müəllim vəzifəsinə təyin edildim. 2012-ci ildə Qafqaz Universitetinin İqtisadiyyat və İnzibati Elmlər Fakültəsi Biznesin İdarə Edilməsi Departamentinin Rəqəmsal Metodlar kafedrasına assistent vəzifəsinə təyin olundum. 2014-cü ildə Sosial, İnsan və İnzibati Elmlərin Əsas Sahəsi, Kəmiyyət Qərar Metodları Elmi sahəsində dosent elmi adını almışam. 2018-ci ildə Qafqaz Universitetinin İqtisadiyyat və İnzibati Elmlər Fakültəsində İdarəetmə İnformasiya Sistemləri Departamentini yaradıb və həmin kafedrada müdir vəzifəsinə təyin edildim. 2019-cu ildə Qafqaz Universitetinin İqtisadiyyat və İnzibati Elmlər Fakültəsinin İdarəetmə Informasiya Sistemləri Departamentinin professoru. Dr. kimi təyin edildim. Hazırda həmin kafedrada müəllim vəzifəsində işləyirəm.

Qafqaz Universitetində bir çox inzibati vəzifələrdə işlədim. Hazırda icra etdiyim inzibati vəzifələr var; Qafqaz Universitetinin Senat üzvü, Qafqaz Universitetinin Elmi Tədqiqat Layihələri üzrə Ali Şurasının üzvü, Qafqaz Universitetinin İqtisadiyyat və İnzibati Elmlər Fakültəsi İdarə Heyətinin üzvü və Qafqaz Universitetinin İqtisadiyyat və İnzibati Elmlər Fakültəsi İdarə Heyətinin üzvüyəm. Mənim ölkə daxilində və xaricdə çap olunmuş 8 kitabım, yerli və beynəlxalq jurnallarda dərc olunmuş 50-dən çox elmi məqalələrim, sahəm ilə bağlı 500-ə yaxın elmi sitatım vardır.

Akademik təcrübə sahələrim statistik təhlil, sorğunun tərtibatı, tətbiqi, şərhi və ictimai rəyin öyrənilməsidir.

Akademik olaraq, ingilis dilini yaxşı bilirəm. Evliyəm, Yusuf Əli və Gökbörü Kərəm adlı iki oğlum var.

***- Bildiyimiz qədər siz əslən Azərbaycandansınız...***

- Bəli, Azərbaycan əsilliyəm. Oxuculara dədəm Həmzə ağa Səngər haqqında məlumat vermək istərdim.

1864-cü ildə İbişdə doğulan Əmrah və Fatmadan olan Həmzə Ağa (SƏNGƏR) Rusiyanın işğalı altında olan Qars vilayətinin Ağbaba qəsəbəsinin Köhnə İbiş kəndində anadan olub. Köhnə İbişin ağası olub.

Rus tabeliyində olan bölgədə Həmzə Ağa qohumları və qonşuları ilə birlikdə Köhnə İbişdən Yeni İbiş kəndinə (Ağbaba Mahalı İbiş kəndi) köçüb.

Yeni İbiş kəndinin tam qurulması Həmzə Ağanın hesabınadır. Ağbabanın Yeni İbiş kəndinin Ağası, tanınmış ağsaqqallı, Ağbabada çox hörmətli şəxs olan Həmzə ağa öz səxavəti, kasıblara köməkliyi ilə xalqın məhəbbətini qazanmışdır. Xüsusilə Novruz və Qurban bayramlarında İbişdə hər evə baş çəkib, insanlara köməklik göstərdiyi üçün yerli əhali onu “El Atası” adlandırırdı. Xalq 1918-1921-ci illər arasında daşnak ermənilərinin bölgədə törətdikləri qırğınların qarşısını almaq üçün Həmzə Ağanı “Ağbaba Milli Şurası”na rəhbər seçdi. Ağbaba süvari alayının yaranmasına böyük maddi töhfələr verib. Həmin illərdə ermənilərin zülmündən yaralanan türklərin bütün müalicə və yaşayış xərclərini də öz üzərinə götürmüşdür. Gümrü, İrəvan, Naxçıvan, Qars, Ərdahan və Çıldır kimi bölgələrdən qaçanların da sığındığı Ağbaba bölgəsi Həmzə Ağa və Ağbaba Süvari Alayının himayəsində idi. Dəfələrlə Ağbaba ərazisinə hücum edən ermənilər süvari alayından keçə bilməyiblər.

Daşnak erməniləri Anadolu torpaqlarında məğlub oldular. Bilirsiniz ki, Qars müqaviləsi 1921-ci il oktyabrın 13-də imzalanıb. Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistanla şərq sərhədi dəqiqləşdirilib. Qars müqaviləsinə əsasən, Qars Sancağı olan Ağbaba-Şöreyel mahalının böyük bir hissəsi bugünkü Ermənistanın sərhədləri daxilində qaldı.

Qars müqaviləsinə əsasən, Türkiyə ilə Ermənistan arasındakı sərhədlər hər iki tərəf üçün dəyişdirildi. Ermənilər və Azəbaycan Türkləri: Onlara öz istəklərinə uyğun olaraq altı ay ərzində istədikləri bölgəyə köçməyə icazə verildi. Ağbaba-Şörəyəllilər öz istəklərinə görə Arpaçay çayı boyunca Türkiyədə məskunlaşıblar.

1921-ci ildən Rusiyaya tabe olan torpaqlardan Türkiyəyə mühacirlər gəlib. 1927-ci ildə başlayan “immiqrasiya” 1934-cü ilə qədər davam etdi. Bu mühacirlər öz istəkləri ilə gələnlərdir. Kimisi qohumları ilə, kimisi kənd adamı kimi gəlib. Onların bir qismi Muşa, bir qismi Qarsa, bir qismi Sivas, Yozgat, Malatya və s. yerlərə göndərilir.

Həmzə Ağa 1899-cu ildə İbişdə anadan olan böyük oğlu Yusiflə birlikdə türk xalqı və millətı üçün böyük fədakarlıqlara tab gətirmiş, dəfələrlə sürgün və həbslərə məruz qalmış, hər dəfə xilas olmuş, mülkü ruslar və ermənilər tərəfindən sivil bir şəraitdə talan edilmişdir. Hər cür təzyiq və qəddarlıq Həmzə Ağanı və oğlu Yusifi çəkindirə bilmədi.

Həmzə Ağa və oğlu Yusif Türkiyə dövləti tərəfindən mühüm vəzifələrə təyin edilmiş, həyatını Türk millətinə həsr etmiş böyük qəhrəmanlardır.

4 avqust 1938-ci ildə 74 yaşında Qarsda vəfat edən Həmzə Ağanın məzarı Qars Yeni Məhlə Müasir qəbiristanlığındadır.

1997-ci il sentyabrın 7-də, 98 yaşında Qarsda vəfat edən Yusuf Səngərin məzarı Qars Yeni Məhlə Müasir qəbiristanlığındadır. Yusuf Səngərin oğlu, atam Sırrı Səngərin məzarı Qars Yeni Məhlə Müasir qəbiristanlığındadır.

***- Bildiyimizə görə, mərhum atanız Sırrı Sengerin Azərbaycanla əlaqələri yaxşı olub. Bəs Sizin Azərbaycanla əlaqələrin inkişafı ilə bağlı hansısa planlarınız var?***

- Azərbaycan bizim ata-baba yurdumuzdur. Biz hər il Azərbaycanla müntəzəm olaraq mədəni və idman tədbirləri, festivallar təşkil etməyi qarşıya məqsəd qoymuşuq. Azərbaycanlıların müəyyən dövrlərdə Türkiyəyə, xüsusilə Qarsa gəlmələri, tarixi və turistik yerləri ziyarət etmələri üçün səylər göstərəcəyik.

***- Sizin də səfəriniz gözlənilirmi?***

- Biz ilk xarici səfərimizi ən qısa zamanda əcdadlarımızın torpağı olan Azərbaycana etmək niyyətindəyik.

***- Qarsda neçə nəfər Azərbaycan kökənli insan yaşayır? Onların təşkilatlanması hansı səviyyədədir?***

- Tam bir rəqəm vermək çətindir, ancaq şəhərimizdə çoxlu Azərbaycan əsilli əhalinin yaşadığı bilinməktədir.

Təşkilatlanma keçmişə baxdığımızda yaxşıdır. Ancaq bunu xeyli inkişaf etdirmək və irəli aparmaq olar.

**Elnur ELTÜRK**

# "Narkomaniya artıq dövlət təhlükəsizliyimizi təhdid edir"

**Narkomaniyaya və narkoticarətə qarşı mübarizə bütövlükdə cəmiyyəti təhdid edən və çıxış yolunun tapılması vacib olan başlıca problemlərdəndir. Hansı ki, bu məsələ həm cəmiyyətin sağlamlığı, həm də dövlətin varlığı üçün mühüm əhəmiyyət kəsb edir.**

## "Əslində, rəsmi rəqəmlərlə faktiki rəqəmlər üst-üstə düşmür"

## "İstər Azərbaycanın özündə əkilib-becərilən, istehsal olunan, istər də xaricdən daxil olan sintetik narkotik maddələrin qarşısının alınması üçün çox ciddi proqrama ehtiyac var"



## Tahir Kərimli: "Bir sıra şəxslərin narkomaniyanı himayə etməsi nəticəsində yayılma arealı genişlənir"

## "Mənim qabağımda iki şərt qoyuldu: dedilər ya səni işdən çıxarmalıyıq, ya da səni öldürəcəklər..."

Təsadüfi deyil ki, ölkənin qanunverici orqanı olan Milli Məclisin deputatları arasında da bu problemin həll olunması ilə təkliflər irəli sürülür. Bu məsələdə daha çox aktivlik göstərən millət vəkillərindən biri də Tahir Kərimlidir. Odur ki, mövzu ilə bağlı Tahir Kərimli ilə söhbətləşib, onun narkomaniya və narkotik ticarətinin qarşı alınması ilə bağlı təkliflərini daha ətraflı şəkildə öyrənməyə çalışdıq.

***- Tahir müəllim, bu ilin fevral ayında Milli Məclisin insan hüquqları üzrə komitəsinin iclasında Ombudsmanın 2023-cü il üzrə məruzəsinin müzakirəsi zamanı bildirmişdiniz ki, cəzaçəkmə müəssisələrindəki məhkumların yarısından çoxu narkotik istifadəçiləridir. Sizcə, cəmiyyət olaraq bu bəladan necə xilas ola bilərik?***

- Bəli, təşəkkür edirəm. Onu da deyim ki, mən özüm də Milli Məclisin iclasında məsələ qaldırmışam ki, bu gün həbsxanalarda, təcridxanalarda olanların yarıdan çoxu narkotikdən istifadə etdiklərinə görə orada cəza çəkirlər. Bir sıra dövlətlərdə bu, ümumiyyətlə, cinayət sayılmır. Mən o vaxt bir təklif irəli sürdüm ki, ümumiyyətlə, həmin maddənin istifadəsini Cinayət Məcəlləsindən çıxarmaq lazımdır. Narkomanları müalicə müəssisələrinə yönəltmək lazımdır. Nəyə görə mən bu qənaətdəyəm? Cəmiyyətdə olan narkomanların çoxu cəmiyyətdə qalır, amma bir hissəsi azadlıqda olur. Belə çıxır ki, bu cinayəti törədənlərin yarısı çöldədir, yarısı azadlıqdadır. Birincisi, bu, ədalətsizlikdir. Dövlət orqanları həm azadlıqdan məhrumetmə yerlərində, eyni zamanda həm polis, müstəntiq və digər orqanlar həddsiz dərəcədə buna vaxt sərf edirlər. O cinayət işinin aparılmasına həm vəsait, həm də zaman gedir. Bu nöqteyi-nəzərdən mən hesab edirəm ki, bu insanların sayəsində Azərbaycanda həddən çox məhkumluq yaranır.

Eyni zamanda, sizə bir söz də deyim, bu insanların özlərinin də şəxsi həyatı sınır, məhkumluq yaşayırlar. Yəni onların şəxsi tərcümeyi-halında məhkumluq olur ki, onlar gələcəkdə psixoloji cəhətdən bundan çıxa bilmirlər. Hara getsələr işə düzələ bilmirlər və s. Ona görə, mənim birmənalı mövqeyim bundan ibarətdir, necə ki, həm komitə iclaslarında, həm də plenar iclaslarında səsləndirmişəm. Ombudsman da sağ olsun, bunu deyib, biz də ümumiyyətlə bu məsələdən çıxmalıyıq. Məsələn, həmin sərf edilən vəsaitin yarıdan azını istifadə etməklə müalicə müəssisələri yarada, narkomanları orada məcburi müalicəyə cəlb edə bilərik, nəinki məhkum edib həbsxanalarımızı dolduraq.

***- Sizcə, dövlətin günbəgün sayları çoxalan narkomanların müalicəsi üçün yetərli resursları varmı?***

- Mən özümün təhlilimə, istintaq-təhqiqat orqanları və azadlıqdan məhrumetmə yerlərindən çəkdiyim misallara əsasən hesab edirəm ki, bu məhkumlara çəkilən vəsaitin hətta yarıdan azını sərf etməklə, onları müalicə edə bilərik. Məsələn, müalicə mərkəzləri tikərək, oraya kontingent və digər personalları cəlb etməklə onları müalicəyə yönəltmək olar. Hətta bunu həmin vəsaitin yarıdan azını sərf etməklə yerinə yetirmək olar. Büdcəyə də əlavə güc düşməz.

***- Tahir müəllim, sizin də qeyd etdiyiniz kimi, narkomanların həbsi məsələsində cəmiyyətimizdə ədalətsizlik mövcuddur. Belə ki, maddi imkanı olan narkotik istifadəçiləri azadlıqda qalır, maddi imkanı olmayanlar isə həbsə düşür. Bu, əslində narkomaniyanın yayılmasına şərait yaradan daha bir alət rolunu oynamırmı?***

- Əslində, sizin sualınızda elə həm də cavab var. Ona görə mən deyirəm ki, narkomaniyaya qarşı mübarizədə biz elə bir proqram, elə bir sistem yaratmalıyıq ki, burada sui-istifadə hallarına, tamahkarlıq hallarına yol verilməsin. Yəni bu məsələnin ört-basdır edilməsi, ədalətsiz qərarlar verilməsi, onlar arasında seçim edlməsi imkanları minimuma endirilsin. Şübhəsiz ki, siz deyənlər mövcuddur.

***- Yeri gəlmişkən, bu günlərdə həmkarınız Siyavuş Novruzov da narkotilərlə mübarizənin ciddiləşdirilməsi təklifini irəli sürdü. Siz mübarizənin ciddiləşdirilməsi yollarını necə görürsünüz?***

- Bilirsinizmi, ümumiyyətlə mən hesab edirəm ki, ciddi hazırlaşıb, dövlət proqramı qəbul etməliyik. Çünki bu, açıqdan-açığa cəmiyyətə böyük təhdiddir. Misal üçün, hamının gözünün qabağında Bakı şəhərində və yaxud da rayonlarımızda narkomaniyanın çox geniş yayıldığının şahidi oluruq. Əslində, rəsmi rəqəmlərlə faktiki rəqəmlər üst-üstə düşmür. Narkomaniya həddən çox kütləni əhatə edir, gənclərimizi sıradan çıxarır. Yəni potensial olaraq artıq dövlət təhlükəsizliyi təhdid olunur. Nəyə görə? Gənclər narkomaniyaya qoşulmaqla elmdən, təhsildən uzaq qalırlar, istehsalda çalışmırlar, özlərinə normal həyat qurmurlar ki, bu da bizim gələcəyimizə böyük zərbədir. Hesab edirəm ki, bir proqram qəbul edib, həmin proqrama aidiyyəti qurumları, o cümlədən hüquq-mühafizə orqanlarını cəlb etməklə, biz ciddi dəyişikliklər etməliyik.

Bu nöqteyi-nəzərdən narkomaniyanın xaricdən Azərbaycana idxalının qarşısını almaqla, açıqca bildirəcəyəm, eyni zamanda bir sıra şəxslərin narkomaniyanı himayə etməsi nəticəsində yayılma arealı genişlənir. İstər bu arealın daraldılması, istər Azərbaycanın özündə əkilib-becərilən, istehsal olunan, istər də xaricdən daxil olan sintetik narkotik maddələrin qarşısının alınması üçün çox ciddi proqrama ehtiyac var ki, buraya bütün dövlət sistemini, bütün cəmiyyətimizi cəlb edib, birgə mübarizə aparmalıyıq. Yoxsa, açığını deyim, əgər bu gün yuxarıdan - ən yüksək səviyyədə belə bir proqram qəbul etməsək, bizim əlahiddə mübarizəmiz səmərə verməyəcək, narkomaniyanın qarşısını ala bilməyəcəyik. Çünki narkomaniya bəzilərinə həddsiz sərvət toplamağa imkan verir. Bu tamahkarlıq bizim balalarımızı əlimizdən almağa davam edir...

***- Sizin qeyd etdiyiniz kimi, tamahkarlıq məqsədilə narkomaniyanı yayanlar konkret olaraq dövlətə qarşı düşmənçilik edirlər...***

- Sizə sovet dövründən bir misal çəkim. O zaman mən hakim işləyirdim. Mənə məlumat verdilər ki, siz narkotik maddələrin ləğvi barədə qərar çıxarmısınız, amma onu bir hissəsini yandırırlar, çox böyük bir hissəsi isə tədavülə buraxılır. Elə oldu ki, ondan sonra mən özüm şəxsən narkotik maddələrin ləğvində iştirak etdim. Bilirsiniz nə oldu? O vaxt mobil telefonlar da yox idi, hakim oturacağına oturana qədər məni yuxarıda axtardılar. Bakıya dəvət etdilər, çox ağır söz dedilər ki, sən nə üçün bu işlərə belə ciddi müdaxilə edirsən və s. Təsəvvür edirsinizmi? Yəni sovet dövründən narkomaniya böyük bir bəladır. Yəni narkomaniyanı himayə olunmasaydı, olmazdı. Ona görə mən sizə misal çəkdim ki, bu, nə qədər çətin bir məsələdir. Hətta mənim qabağımda iki şərt qoyuldu: dedilər ya səni işdən çıxarmalıyıq, ya da səni öldürəcəklər. Bu nə işdir, nə üçün sən müdaxilə edirsən, mane olma, və s. Ona görə, mən işi kökündən bilən adamam.

Yaxud da əkin əkirdilər, bilirdilər ki, mən qadın tutmuram, bir ildə az qala yüzə yaxın narkotik maddələrin əkilməsi məsələlərinə baxırdıq, o işləri hamısını elə təqdim edirdilər ki, guya onların hamısı qadınlardır. Qadınlar da gəlirdi, ana-bala deyirdilər ki, hə, mən əkmişəm, becərmişəm. İstintaqda qadınları irəli verirdilər, bütün məsuliyyət qadınların üstündə qalırdı, təqsirkarlar, kişilər kənarda qalırdı. Qadınları da necə tutasan, qalırsan başına döyə-döyə. Əgər il ərzində narkotik əkini ilə bağlı 70 iş daxil olurdusa, onların hamısı qadın olurdu. Qadınları verirdilər məhkəməyə, mənim də o vaxt gücüm çatmırdı 70 işin hamısını geri qaytarım, orqanlarla vuruşum. Bax, belə halları bilirəm.

Bu tendensiya davam etdi, qarşısını almaq çətin oldu. Təəssüf ki, narkomaniya çox geniş yayılır. Ona görə mən deyirəm ki, proqram lazımdır. Bütün orqanların qarşısında ciddi vəzifələr qoyulsun, mübarizə aparılsın. Vətəndaşlar da orada iştirak etməlidir, dövlət də.

**Söhbətləşdi:
Asya ŞÜKÜROVA**

"Həmin vaxt Azər Nadirov oğluma "səni şərləyib tutduracağam" deyib. Bu mübahisə əlbəyaxa davaya qədər gəlib çıxıb. Nəticədə, Azər atasının obyektlərində qeyri-rəsmi işlətdiyi əlaltılarından "şahid" kimi istifadə edərək, oğlumu şərləyərək, haqsız yerə həbs etdirdi. Bu hadisədən sonra bizə aydın oldu ki, Azər peşəkar dələduzdur, hətta CM-nin 178.3 maddəsi ilə məhkumluğu da olub"




"Orada tikinti işinə rəhbərlik edən şəxslərlə söhbət etdim. Onlar Azər Nadirov adlı adamı tanımadıqlarını və belə bir şəxsin sözügedən tikintiyə heç bir aidiyyətinin olmadığını söylədilər. Bu zaman Azərin oğlumun etibarından sui-istifadə edərək, onu aldatdığı mənə aydın oldu"

# Masallıda şok dələduzluq faktı

## "20 Yanvar"dakı binanı göstərib, "şərikli tikirik" dedi, ev almaq adı ilə işçisinin 30 min manatını ələ keçirdi

Masallı rayonu, Füzuli küçəsi 60-da yaşayan Bilalov Üzeyir Abı oğlu "Hürriyyət"in redaksiyasına müraciət edib. Şikayətçi oğlu Bilalov Ədalət Üzeyir oğlunun dələduzluqla üzləşdiyini və özünün zərərçəkən olmasına rəğmən, qanunsuz olaraq 4 il müddətinə həbs olunduğunu bildirir.

Onun sözlərinə görə, Ədalət Bilalov 2014-cü ilin fevral ayında Masallı şəhərində yerləşən "Xan" telekom adlı telefon mağazasında satıcı olaraq çalışıb. Onu mağazanın sahibi kimi tanıdığı Nadirov Azər Abı oğlu işə götürüb. Bir müddət mağazada çalışan Ə.Bilalov günlərin birində müdiri ilə söhbət zamanı ali təhsil almaq istədiyini deyib. Bildirib ki, bu məqsədlə Bakda ev almağı və burada yaşamağı düşünür: "Həmin vaxt Azər Nadirov oğluma bildirib ki, guya, Bakıda tikinti şirkətlərindən birinə şərikdir və hazırda "20 Yanvar" metrostansiyasının yanında bina tikdirir. O, həmin binadan oğluma münasib qiymətə mənzil verə biləcəyini deyib. Əlavə edib ki, mənzilin qiymətini də hissə-hissə ödəyə bilər".

Şikayətçinin dediyinə əsasən, bu təklif sərfəli olduğundan, oğlu evdə Azər Nadirovun "şərikli tikdirdiyi binadan" mənzil almaq istədiyini bildirib. Nəticədə, ailədə belə qərara gəlinib ki, pulunu hissə-hissə ödəmək imkanından yararlanmaqla, həmin binadan mənzil alınsın: "Bir neçə vaxtdan sonra oğlum Ədalət Azərlə birlikdə mağazaya telefon avadanlıqları və ehtiyat hissələri almaq üçün Bakı şəhərinə gediblər. Azər Nadirov "20 Yanvar" metrosunun aşağı tərəfindəki - şəhər istiqamətindəki binanı ona göstərərək, həmin binadan 3 otaqlı mənzil verəcəyini deyib. Onu da vurğulayıb ki, tikinti gedən zaman pul ödəsə, mənzil bir qədər də aşağı qiymətə başa gələcək. Çünki bina hazır olandan sonra mənzilin qiyməti bahalaşır".


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 04122512
Soyadı
BİLALOV
Adı
ÜZEYİR
Atasının adı
ABI OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,MASALLI şəh.
02.10.1953
I<AZEBILALOV<<UZEYIR<<<<<<<<<<<<<<<<<
04122512<1AZE5310027M<<<<<03YH4AHY1

Üzeyir Bilalov bildirir ki, oğlu Ədalət Azərla birgə işlədiyi üçün ona inanıb, tikinti yerinə baş çəkməyə ehtiyac görməyib. Bundan sonra, 14 aprel 2015-ci ildə 18 min manat düzəldiblər və oğlu həmin pulu ilkin ödəniş kimi aparıb Azərə vermək istəyib. Lakin o, pulu nəğd şəkildə qəbul etməyib, özünü "işgüzar adam" kimi göstərmək və qarşı tərəfi inandırmaq üçün həmin vəsaiti bank hesabına köçürməsini istəyib. Beləliklə, Ədalət "Əmrah Bank"ın Masallı filialına gedərək, Azərin verdiyi hesaba 18 min manat ödəniş edib. Daha sonra həmin pulun bank çekini gətirib Azərə göstərib və qarşı tərəf buna ehtiyac olmadığını, ona inandığını bildirib. Müdirin bu cavabından sonra Ədalət çeki mağazadakı stolun siyirməsinə qoyub. 08 iyun, 2015-ci ildə isə yenidən 12 min manat vəsaiti Azərin hesabına köçürüb.

Beləliklə, oğlu ev almaq üçün Azər Nadirovun hesabına 30 min manat ödəniş edəndən sonra, Üzeyir Bilalov 2015-ci ilin iyun ayının 12-14 tarixlərində Bakı şəhərində olarkən, Azərin göstərdiyi binaya baş çəkib: "Orada tikinti işinə rəhbərlik edən şəxslərlə söhbət etdim. Onlar Azər Nadirov adlı adamı tanımadıqlarını və belə bir şəxsin sözügedən tikintiyə heç bir aidiyyətinin olmadığını söylədilər. Bu zaman Azərin oğlumun etibarından sui-istifadə edərək, onu aldatdığı mənə aydın oldu".

Şikayətçi deyir ki, Masallıya qayıtdıqda baş verənləri oğluna danışıb və Azərin onları aldatdığını bildirib. Bundan sonra Ədalət mağazaya gedərək, Azərdən 30 min manatı qaytarmasını tələb edib: "Həmin vaxt Azər Nadirov oğluma "səni şərləyib tutduracağam" deyib. Bu mübahisə əlbəyaxa davaya qədər gəlib çıxıb. Nəticədə, Azər atasının obyektlərində qeyri-rəsmi işlətdiyi əlaltılarından "şahid" kimi istifadə edərək, oğlumu şərləyərək, haqsız yerə həbs etdirdi. Bu hadisədən sonra bizə aydın oldu ki, Azər peşəkar dələduzdur, hətta CM-nin 178.3 maddəsi ilə məhkumluğu da olub".

Üzeyir Bilalov onu da vurğuladı ki, A.Nadirovun bank hesabına ödənilən 30 min manatın qəbzlərini digər sənədlərlə birgə istintaqa təqdim etsələr də, sonrada həmin qəbzlər sənədlərin arasından "yoxa çıxıb": "Daha


AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞU
MASALLI RAYON PROKURORLUĞU
Masallı rayon prokuroru
Eldar Əsgərov


ELAN
14/04/2015
AMRAHBANK
Qəbul edildi: BILALOV ADALAT UZEYIR OGLU
Alanın bankı: "AMRAHBank" ASC Masallı filialı
Alan: NADIROV AZƏR ABI OĞLU
Məbləğ yazı ilə: On səkkiz min altmış beş man. 05 qəp.
Ödənişin təyinatı: Hesaba mədaxil
410109441018138502
18065.05 = AZN
Ödəyənin imzası
Məsul icraçı
Xəzinədar


ELAN
14/04/2015
AMRAHBANK
Qəbul edildi: BILALOV ADALAT UZEYIR OGLU
Alanın bankı: "AMRAHBank" ASC Masallı filialı
Alan: NADIROV AZƏR ABI OĞLU
Məbləğ yazı ilə: On səkkiz min altmış beş man. 05 qəp.
Ödənişin təyinatı: Hesaba mədaxil
410109441018138502
18065.05 = AZN
Ödəyənin imzası
Məsul icraçı
Xəzinədar

sonra vəkil "Əmrah Bank"a müraciət edərək, qəbzlərin surətini istəyib. Bank rəhbərliyi isə bildirib ki, "qanunun 41-ci maddəsinə əsasən şəxsi hesabın məlumatını verə bilmərik". Adını çəkdiyim şəxs peşəkar cinayətkar olduğu üçün həm bankla, həm də hüquq mühafizə orqanı ilə birgə çalışıb".

Ü.Bilalov deyir ki, dediklərini sübut etmək üçün əlində çoxsaylı faktlar var: "Oğlum bu adamın şər-böhtanı ucbatından nahaqdan 4 il həbs cəzası çəkdi. Nəhayət, illər sonra çox çətinliklə qəbzlərin surətini "Əmrah Bank"dan aldım və məhkəməyə təqdim etdim. Bundan sonra oğlumu həbsdən azad etdirə bildim. İndi də oğlum Azər Nadirovdan pulunu istəyəndə, ona bildirir ki, "mənim hər yerdə əlim var, səni yenə də şərlətdirib tutduraram". Deyir ki, cibinə, həyətinə narkotik atdıracam, qadın tapıb səndən şikayət yazdırıb tutduracağam və s. Oğlum həbsdə olarkən, Azər o sözləri mənə də deyib. O, cəmiyyət üçün təhlükəli bir insandır".

Şikayətçi rəsmi qurumlardan xahiş edir ki, ona dəyən zərərin qaytarılmasına köməklik göstərsinlər: "Bu yazını oxuyan səlahiyyətli şəxslərdən xahiş edirəm ki, mənə dəymiş ziyanın ödənilməsinə köməklik göstərə, Azər Nadirovu isə CM-nin müvafiq maddəsi ilə cəzalandırasınız".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Xarici işlər nazirlərinin Almatı görüşü hansı nəticələrlə yekunlaşdı?



**Bugünlərdə, daha dəqiq desək, 10-11 may tarixlərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında Qazaxıstanın Almatı şəhərində görüş baş tutub. Qeyd edək ki, delimitasiya üzrə irəliləyişi və bununla bağlı əldə edilmiş razılaşmaları alqışlayan nazirlər, həmçinin onların nümayəndə heyətləri "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəalarının müzakirəsini davam etdiriblər. Tərəflər hələ də fikir ayrılıqlarının mövcud olduğu açıq qalan məsələlər üzrə danışıqları davam etdirməyə razılaşıblar.**

Onu da nəzərinizə çatdıraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan iki ölkə arasında sülh müqaviləsinin noyabra qədər bağlana biləcəyini vurğulayıb. Paşinyanın sözlərinə görə, bunun üçün danışıqlar zamanı razılaşdırılmış bütün prinsipləri sənəddə qeyd etmək lazımdır və bu prinsiplər açıqdır.

### "Almatı görüşündən saziş mətni çıxmayacağı əvvəldən bəlli idi"

Beləliklə, "Hürriyyət" xəbər verir ki, mövzu ilə bağlı mövqeyini bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə, Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyanın Almatı şəhərində danışıqların nəticəsiylə bağlı iki fərqli rəy var: "Birinci rəy bundan ibarətdir ki, heç bir razılaşma olmayıbsa, deməli görüş nəticəsiz qalıb. İkinci rəyə görə isə danışıqlarda irəliləyiş qeydə alınıb. Əvvəlcədən bəlliydi ki, Almatı görüşündən saziş mətni çıxmayacaq. Zaman hələ tam yetişməyib. Buna baxmayaraq, iki günlük Almatı müzakirələri gələcək razılaşmanın əldə edilməsində növbəti mərhələ sayıla bilər. Almatı görüşünü işıqlandıran qazax jurnalist dostlarımdan biri ilə əlaqə saxladım. Görüşdən sonra yerli mətbuata açıqlama verilmədiyini söylədi. Eyni zamanda, Azərbaycan və Ermənistan Xarici İşlər Nazirliyi görüşlə bağlı oxşar açıqlama yayımlayıblar. Bu açıqlamarda önəmli iki cümlə var: "Nazirlər delimitasiya üzrə irəliləyişi və bununla bağlı əldə edilmiş razılaşmaları alqışlayıblar. Tərəflər hələ də fikir ayrılıqlarının mövcud olduğu açıq qalan məsələlər üzrə danışıqları davam etdirməyə razılaşıblar". Bu cümlələrin yazılması göstərir ki, Bakı və İrəvan danışıqlarda müsbət atmosferin davamında maraqlıdır, tərəflər ziddiyət yaradan məqamlara deyil, ortaq nöqtələrin tapılmasına üstünlük verirlər".

### "Növbəti müharibə zamanı ermənilərin itkiləri daha böyük olacaq"

Prezident İlham Əliyevin mayın 10-da Şuşa şəhərində sakinlərlə görüşdə səsləndirdiyi "əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin" açıqlamasına da münasibət bildirən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri qeyd edib ki, ölkə başçısının xəbərdarlığının birinci hissəsi İrəvanda mitinq keçirən radikallara, onlara dəstək verən kilsəyə ünvanlanıb: "Açıqlamanın birinci hissəsinin mənası budur ki, radikallar baş nazir Nikol Paşinyanı devirib Azərbaycanla mövcud razılaşmalardan itmina etsələr, sərhəddə quraşdırılan dirəkləri söksələr, bu, növbəti müharibəyə səbəb olacaq və ermənilərin bu dəfə itkiləri daha böyük olacaq. Erməni cəmiyyətinin iki seçimi var. Birinci seçim yürüş və mitinqi təşkil edən keşişin ardınca getmək və bununla yeni müharibəyə hazırlaşmaq, ikinci seçim isə əvvəlkitək baş nazir Nikol Paşinyanı və onun hökumətini dəstəkləməklə hazırki danışıqlar prosesinə tərəfdar olmaq. İkinci Qarabağ müharibəsindən ağır dərs alan erməni cəmiyyətinin əksər hissəsinin ikinci seçimə üstünlük verəcəyi ehtimalı yüksəkdir".

Politoloqun sözlərinə görə, İlham Əliyevin mesajının ikinci hissəsi Fransa və ABŞ- a yönəlib. Elxan Şahinoğlunun qənaətincə, ölkə başçısının xəbərdarlığının mahiyyəti bundan ibarətdir ki, Paris və Vaşinqton hazırki danışıqlar prosesinə mane olmamalı, əldə edilən razılaşmalara dəstək verməlidirlər: "Fransa Azərbaycanla münasibətləri o qədər gərgin hala gətirib ki, Bakı ilə İrəvan arasında danışıqlar prosesini və əldə edilən müsbət nəticələri vurğulamağa üzü gəlmir.



Elxan Şahinoğlu:
"Azərbaycanla Ermənistan arasında sülh sazişi üçün zaman hələ tam yetişməyib"

Vaşinqton isə mövcud prosesi dəstəkləməyə hazırdır. Bu mənada, Vaşinqton Parisdən fərqlənir. İlham Əliyev də ikisi arasında bərabərlik işarəsi qoymur. Dövlət başçısı ən azı ABŞ rəsmiləri və diplomatları ilə dialoqu davam etdirir, Fransa ilə dialoq isə Parisin siyasəti ucbatından sıfıra endirilib".

### "Bağrat Qalstanyanın da Qapon kimi xarici kəşfiyyatlardan birinə işləməsi və sonunun rus keşişi kimi bitəcəyi istisna deyil"

Politoloq onu da əlavə edib ki, Azərbaycanla delimitasiyaya qarşı etiraz aksiyası başladan və Nikol Paşinyanın impiçmenti üçün hərəkətə keçən keşiş Bağrat Qalstanyanın ötən əsrində əvvəllərində Rusiyada yaşayan keşiş Qaponla oxşar cəhətləri az deyil: "Vaxtilə Qapon da Qalstanyan kimi müxalif hərəkata liderlik iddiasında idi. Rus keşiş etirazçıları Rusiya imperatoruna qarşı qiyama qaldırmağa cəhd etdi, nəticədə etirazçılar meydanda güllələndi və bu, tarixə 1905-ci il "qanlı bazar günü" kimi düşdü. İnsanları qırğına verən Qapon özü qaçıb gizləndi, bir il sonra inqilabçı dostları keşişin çar polisinin gizli xəfiyyəsi olması ittihamıyla onu qətlə yetirdilər. Qaponun təxribatı Rusiyada sonrakı təlatümlərin başlanğıcı oldu, qiyamçı bolşeviklərin hakimiyyətə gəlişini sürətləndirdi. İndi Bağrat Qalstanyan da Qaponun yoluyla gedir, etirazçıları hakimiyyətə qarşı mübarizəyə səsləyir. Onun da Qapon kimi xarici kəşfiyyatlardan birinə işləməsi və sonunun rus keşişi kimi bitəcəyi istisna deyil".

### "Ermənistanın xarici işlər nazirlərinin görüşü ilə bağlı gözləntiləri özünü doğrultmadı"



Asif Nərimanlı:
"Ermənistanla yanaşı, başda ABŞ olmaqla Qərb ölkələrinin Alma-Ata bəyannaməsi üzərində xüsusilə dayanması fonunda Bakının geri addım atmaması əhəmiyyətlidir"

Siyasi şərhçi Asif Nərimanlı isə bildirib ki, xarici işlər nazirlərinin Almatı görüşündə Ermənistanın gözləntiləri özünü doğrultmadı: "Qazaxın 4 kəndinin qaytarılmasından sonra İrəvan Almatıda Alma-Ata bəyannaməsinin yenilənməsi ilə nəticələnəcək razılaşmaya ümid edirdi. Görüşün də məhz 1991-ci ildə bəyannamənin imzalandığı "Dostluq Evi"ndə keçirilməsi simvolik xarakter daşıyırdı. Lakin tərəflər şifahi olaraq, sülh sazişi üzrə danışıqların davam etdirilməsinə razılaşdı. Həm Bakının, həm İrəvanın rəsmi açıqlamasında fikir ayrılıqlarının olduğu vurğulanır. Gözlənildiyi kimi, sərhədin delimitasiyasında və kommunikasiyanın açılmasında hansı prinsiplərin əsas götürülməsi açıq qalır".

Asif Nərimanlı hesab edir ki, dörd kəndin qaytarılmasından sonra Ermənistanla yanaşı, başda ABŞ olmaqla Qərb ölkələrinin Alma-Ata bəyannaməsi üzərində xüsusilə dayanması fonunda Bakının geri addım atmaması əhəmiyyətlidir. Siyasi şərhçinin fikrincə, Almatı görüşünün əsas nəticəsini bu kontekstdə qiymətləndirmək olar.

### "Ermənistanda etirazlara rəhbərlik edən keşiş Bağrat Qalastyan 2018-ci ildəki Nikol Paşinyanı xatırladır"



Zaur İbrahimli:
"Bundan sonra Nikol Paşinyanın başı çox ağrıyacaq"

"Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri, politoloq Zaur İbrahimli isə bu qənaətdədir ki, Ermənistanda etirazlara rəhbərlik edən keşiş Bağrat Qalastyan 2018-ci ildəki Nikol Paşinyanı xatırladır: "Həm danışığı, kütləyə xitabı, tərzi, kütlə ilə davranması eyni ilə 6 il əvvəlki Paşinyandır. Simalarında da oxşarlıq var, 2018-ci ildə Paşinyan dərviş tərzində dolaşırdı, indi isə Bağrat onun yolunu gedir. Yürüşləri də çox bənzərdi. Rusiya nəhayət, 6 il axtarışdan sonra Paşinyana real alternativ tapa bildi. Elə onun özünə bənzər fiqur tapıldı. Bundan əvvəl keçmiş prezidentlər, Gürcüstandakı kimi milyarder, çəkist sınaqdan çıxarılmışdı. Uğursuzluğa düçar olmuşdu. İndi isə Paşinyanı yamsılayan keşiş pis varinat deyil. Nikolun başı bundan sonra çox ağrıyacaq".

**Vazeh BƏHRAMOĞLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur





# Gürcüstan və Ermənistanda baş verən olayların arxasında kim(lər) dayanır?

Hazırda Cənubi Qafqazın iki ölkəsində, yəni Gürcüstan və Ermənistanda siyasi böhran yaşanır, desək yəqin ki, bir o qədər də yanılmış olmarıq. Çünki bu gün Gürcüstanda parlamentin hakim "Gürcü Arzusu" partiyasının təklif etdiyi "Xarici agentlər haqqında" qanun layihəsinin dəstəklənməsinə qarşı, Ermənistanda isə keşiş Baqrat Qalstyanın çağırışı ilə baş nazir Nikol Paşinyanın siyasətinə etirazla əlaqədar aksiya keçirilir. Qeyd edək ki, İrəvandan fərqli olaraq, əksər Qərb dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Gürcüstanda baş verənlərə görə, məhz iqtidarı qınayır və müxalifətə dəstək nümayiş etdirirlər.

**”Moskva kilsəni də işə qatmaqla vətəndaş itaətsizliyi yolu ilə növbəti dəfə Paşinyanı devirməyə cəhd edir”**

”Hürriyyət” xəbər verir ki, hazırda Gürcüstan və Ermənistanda baş verənləri Qərblə Rusiya arasındakı geosiyasi savaşının bir hissəsi kimi xarakterizə edən siyasi şərhçi Fuad Qəhrəmanlının fikrincə, Gürcüstanda Rusiyameyilli hakimiyyətlə Qərbə inteqrasiya tərəfdarı xalq, Ermənistanda isə demokratik hakimiyyətlə Moskvaya bağlı ”5-ci kolon” arasında gərginlik getdikcə dərinləşir: ”Bu gün baş verənlər Putinin Cənubi Qafqazda revanş cəhdidir və Qərbin Ukrayna savaşının nəticələrini gözləmədən regionda geosiyasi nəzarəti almaq planlarına qarşı Rusiyanın əks həmləyə keçdiyini göstərir. Ona görə də səhnədə kimlərin olmasından asılı olmayaraq, pərdə arxasında geosiyasi savaş aparan Qərb və Rusiya var. Bu gün Gürcüstanda baş verənlər həm də ona görə önəmlidir ki, əgər İvanişvili ”Xarici agentlər” haqqında qanunu qəbul etdirib hələ üstəlik oktyabrda keçiriləcək seçkilərdə hakimiyyətdə qala bilsə, o zaman Paşinyan hakimiyyətini Avrointeqrasiya kursuna görə təkcə Azərbaycan vasitəsilə ilə təhdid etməyə gərək qalmayacaq, Rusiya Ermənistanın Qərbə çıxış yolunu nəzarətə götürməklə öz təzyiq imkanlarını xeyli gücləndirə biləcək. Bu həm də Qərblə kəskin gərginlik yaşayan Azərbaycan hakimiyyətinə də nəfəs dərmək imkanı verəcək və Avropanın başı bir müddət üçün Gürcüstan və Ermənistanda qarışacağına görə, daha Bakı ilə o qədər də dərinə getməyə ehtiyac qalmayacaq. Çünki bu halda Rusiyanın müqaviməti həm də geosiyasi səbəblərdən qabaran insan haqları mövzusunda basqıların effektivliyini zəiflədəcək”.

Fuad Qəhrəmanlının sözlərinə görə, Gürcüstanda keçirilən 100 minlik etiraz aksiyası onu göstərdi ki, xalq birləşdirici müxalifət qüvvəsi olmasa da, Avrointeqrasiya ideyası ətrafında birləşərək vahid bir milli iradə meydana çıxara bilib: ”Bu çox önəmli bir nəticədir və güclü müxalifət olmadan belə, xalqın siyasi proseslərdə aktiv subyekt kimi çıxış etməsinə imkan verir. Gürcüstan müxalifəti siyasi baxımdan zəif və dağınıq vəziyyətdədir, ortada parlaq bir lideri də yoxdur, bu şəraitdə onun seçkilərdə ”Gürcü arzusu”na qalib gəlmək imkanları da o qədər yüksək deyil. Ancaq cəmiyyətdə siyasi bölünmənin Rusiya yanlılarla Avrointeqrasiya tərəfdadarları arasında getməsi, oktyabr seçkilərində İvanişvilinin mövqeyini əhəmiyyətli dərəcədə zəiflədərək onun vətəndaş cəmiyyətinin öncüllük etdiyi spontan xalq hərəkatına məğlub olması ehtimalını da xeyli dərəcədə artırır. Ancaq istisna edilmir ki, izdihamlı aksiyalar davamlı xarakter alarsa, bu heç oktyabrı gözləmədən xalq inqilabı ilə də nəticələnə bilər. Ermənistanda isə arxiyepiskop Baqrat Qalstyanın liderliyi ilə kilsə və müxalifətin birlikdə təşkil etdiyi Rusiyadan yönləndirilən ”Vətən naminə Tavuş” hərəkatının 2 gün öncə keçirdiyi 20 minlik aksiya Paşinyan hakimiyyətinə qarşı indiyə qədər keçirilmiş ən kütləvi etiraz hesab olunur. Ancaq cəmiyyətdə nüfuzu yerlə sürünən müxalifət liderləri Köçəryan və Sərkisyan korrupsioner və Rusiyanın əlaltıları kimi tanındıqları, müharibə tərəfdarları kimi qəbul edildikləri üçün Avrointeqrasiya tərəfdarı olan erməni xalqı bu günə qədər onlara kütləvi dəstək verməyib. Ona görə də Moskva indi ermənilər arasında mühüm təsiri olan kilsəni də işə qatmaqla vətəndaş itaətsizliyi yolu ilə növbəti dəfə Paşinyanı devirməyə cəhd edir. Ancaq İrəvanda keçirilən etiraz aksiyalarına qatılanların sayında əhəmiyyətli azalma görünür. Son bir gün ərzində 50-dən artıq aksiya iştirakçısı isə yolları bağlamaq cəhdinə görə saxlanılıb. Kütləvi dəstəyinin azaldığını görən Qalstyan və dəstəsi ali məktəblərə gedib tələbələri kütləvi itaətsizliyə çağır, hakimiyyətin nəzarət edə bilməyəcəyi xaos durumu yaratmağa çalışırlar. Ancaq xalq bu kütləvi etiraz və itaətsizlik aksiyasına qatılmayacaqsa, o zaman bu yolla siyasi böhran yaratmaq və Paşinyanı kütlə gücü ilə istefaya məcbur etmək də mümkün olmayacaq”.



Fuad Qəhrəmanlı: "Gürcüstandakı izdihamlı aksiyalar davamlı xarakter alarsa, o zaman bu, xalq inqilabı ilə nəticələnə bilər"

**”Paşinyanı ”5-ci kolon”un əli ilə onu devirmək üçün planlar quran Putinin arzusu bu dəfə də baş tutmayacaq”**

Siyasi şərhçinin qənaətincə, Qarabağ savaşında Azərbaycana məğlub olmuş erməni xalqı Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasına həm də ona görə maraqlı deyil ki, onu əvəz edəcək ”5-ci kolon”u təmsil edən müxalifətin hakimiyyətə gəlişi yeni müharibə təhlükəsi yaradır, bu isə insanları qorxudur: ” Baqrat Qalstyanın üzdə liderlik etdiyi hərəkatın həm də ona görə uğur qazanmaq şansı yoxdur ki, indi Ermənistanda siyasi seçim müharibə tərəfdarları olan revanşistlərlə sülh istəyən Paşinyan arasındadır və müharibədən qorxan erməni xalqı da indiki hakimiyyətin qalmasında maraqlıdır. Ona görə də Moskvadakı görüşdə Paşinyanla razılaşıb, sonra da ”5-ci kolon”un əli ilə onu devirmək üçün arxada planlar quran Putinin arzusu bu dəfə də çox böyük ehtimalla baş tutmayacaq”.



Şahin Cəfərli: "İvanişvili öz şəxsi taleyini dövlətin taleyi ilə birləşdirməyə, dövləti öz şəxsi maraqlarının müdafiəsi üçün zirehə çevirməyə çalışır"

**”Milli iradə ilə hesablaşmayıb, sərt rejim bərqərar edərək ölkənin üzünü yenidən şimala çevirmək mümkün ehtimal kimi görünmür”**

”Gürcüstanda keçirilən Avropa Marşı müstəqillik dövrünün ən izdihamlı aksiyası kimi yadda qalacaq” deyən siyasi şərhçi Şahin Cəfərli isə qeyd edib ki, Avrointeqrasiya əhalinin 90 faizi tərəfindən dəstəklənən milli ideyaya, həqiqi mənada gürcülərin arzusuna çevrildiyi halda, ”Gürcü Arzusu”nun bu ümummilli hədəfi sabotaj etməyə yönəlmiş siyasətinin rasional tərəfi yoxdur: ”Müxalifətin çoxlu zərrəciklərə parçalandığı, Vahid Milli Hərəkatdan qompaların hələ də davam etdiyi bir şəraitdə ”Gürcü Arzusu”nun oktyabrdakı seçkiləri də udmaq şansı var. Belə olan halda, Rusiyadakının analoqu olan axmaq bir qanun layihəsini qəbul edib, Putin rejimi mənsublarının ritorikası ilə danışaraq xalqı və Qərbi öz üzərinə qaldırmaq hökumətin nəyinə gərək? Bu, hökumətə, hakim partiyaya yox, yalnız bir nəfərə lazımdır. Görünən odur ki, Qərb üçün Bidzina İvanişvilinin istifadə müddəti başa çatıb. Avropa Birliyinin üzvlük üçün Gürcüstanın qarşısında qoyduğu 9 şərtdən biri deoliqarxizasiya aparılmasıdır. Tərcüməsi budur ki, dövlət üzərində İvanişvilinin hüdudsuz hakimiyyətinə tam şəkildə son qoyulmalıdır. Qoca oliqarx isə buna qarşı özünümüdafiə mexanizmi qurur və bədnam qanun layihəsi də bu məqsədə xidmət edir. Bir tərəfdən Avropa Birliyi və dəyərlərinə qarşı ağzına gələni söyləyib, sonra sanki özü qərar verəcəkmiş kimi "Gürcüstan 2030-cu ildə mütləq Avropa Birliyi üzvü olacaq” demək xalqın zəkasını ələ salmaqdır”.

Şahin Cəfərli hesab edir ki, İvanişvili öz şəxsi taleyini dövlətin taleyi ilə birləşdirməyə, dövləti öz şəxsi maraqlarının müdafiəsi üçün zirehə çevirməyə çalışır və bu gün faktiki olaraq, Gürcüstanı girov götürüb: ”Xalq isə yaranmış tarixi şansı bir nəfərin hikkəsinə qurban vermək istəmir. Bu gün meydana toplaşan yüz minlərin hamısı müxalifətçi deyil, belə təqdim etmək heç hakimiyyətə də sərf eləməz. Bu, milli iradənin təcəssümüdür. Bu iradə ilə hesablaşmayıb, sərt rejim bərqərar edərək ölkənin üzünü yenidən şimala çevirmək mümkün ehtimal kimi görünmür”.

**Vazeh BƏHRAMOĞLU**



# Sumqayıt İcra Hakimiyyətinin əməkdaşı haqqında rüşvət iddiası

"Sədaqət Əsədova məndən 3 min manat rüşvət tələb edib ki, sizə ev verəcəyik, amma..."

**Sumqayıt şəhər sakini Həsənov Fikrət Lətif oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. O, Sumqayıt Şəhər İcra Hakimiyyətinin Mənzil təsərrüfatı və mənzillərin qeydiyyatı idarəsinin müdirindən şikayətçidir:**

"Mən, Fikrət Həsənov Lətif oğlu, bildirirəm ki, 1987-ci ildən ümümu əsaslarla mənzil növbəsindədiyik. Özüm 2-ci dərəcəli əliləm.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin Mənzil təsərrüfatı və mənzillərin qeydiyyatı idarəsinin müdiri Sədaqət Əsədova məndən 3 min manat rüşvət tələb edib ki, sizə ev verəcəyik. Mən ona bildirdim ki, bizim o qədər pula gücümüz çatmır. Axırı məndən 200 manat aldı ki, narahat olma, sənə kömək edəcəyəm.

30.12.2023-cu il tarixində 200 AZN pulu şəxsən Sədaqət Əsədovaya ver-


vəsiqə №051933
Soyadı Həsənov
Adı Fikrət
Atasının adı Lətif oğlu
(təşkilat rəhbərinin imzası)
M.Y.
Sumqayıt ŞİH
(vəsiqə verən təşkilatın adı)
Vəsiqənin sahibi 2(ikinci)
(əlilliyin qrupu
və səbəbi) əlildir.
ƏLİLLƏR AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ İLƏ MÜƏYYƏN EDİLMİŞ GÜZƏŞT VƏ İMTİYAZLARDAN İSTİFADƏ ETMƏK HÜQUQUNA MALİKDİRLƏR.
"06" 05.2016 cı il
(verilmə tarixi)
Vəsiqə əlillik müddətinə etibarlıdır. Əlillik qrupu ləğv edildikdə vəsiqə geri alınır.

mişəm. Həmin vaxt Sədaqət xanımın köməkçisi Pərvin xanım da yanımızda olub. Pulu onlara verməyimlə bağlı əlimdə telefon danışıqları, səs yazıları var.

200 manat pulumu almalarına baxmayaraq, mənə heç bir köməklik etmədilər. S.Əsədova mənə deyir ki, hara istəyirsən get şikayət et. Məndə məcbur qalaraq 01.03.2024-cü il tarixində Baş Prokurorluğa müraciət etmişəm.

Şikayətimə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşı Mikayıl Quliyev baxırdı. Təəssüflər olsun ki, M.Quliyev bu günə kimi tədbir görmür. Hətta telefon zənglərimi belə, açmır. Bir sözlə, şikayəti ört-basdır edir.

Onu da qeyd edim ki, S.Əsədova mənim kimi bir çox insanları bu yolla aldadıb. Hətta adını çəkdiyim xanım vətəndaşların evdə olmamasından istifadə edərək, mənzilləri satır. Bütün dediklərimə dair sübutlarım var".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Gəncə sakinindən şok müraciət

## Esmira Hüseynova: "Məhkəmələr və hüquq mühafizə orqanları cinayətin qarşısını almaqdansa, cinayətə yol açırlar"

**Gəncə şəhəri, D.Bünyadzadə küçəsi 106 ünvanında yaşayan Hüseynova Esmira Əli qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova, Baş prokuror Kamran Əliyevə və Ali Məhkəmənin sədri İnam Kərimova müraciət edir:**

**"Hörmətli cənablar!**

Bildirirəm ki, 07.07.2013-cü il tarixdə qardaşım Hüseynov İsmayıl həyat yoldaşı Hüseynova Nahidə ilə birgə əşyalarını bizim həyətə yığdılar. Atamın razılığı olmadan, həyətdə olan 1 otağımızı uçurub, yerində barı hördülər. Bununla da hər gün evdə söz-söhbət başladı. Üstəlik, qardaşım Nahidəni dəfələrlə bəzi adamlarla tutub, gətirib evdə döyürdü. Atam da belə şeyləri qəbul etmir, onların evdən getmələrini tələb edirdi. Bu zaman isə İsmayıl atama qarşı sərt rəftar edir, onu söyürdü. Həmçinin, Nahidə də əxlaqsız hərəkətlər, söyüş söyür, atamı vururdu.

Atam bütün bunlarla bağlı məhkəməyə müraciət etdi. 07.03.2016-cı ildə məhkəmə onların fərdi yaşayış evindən çıxarılması haqda qərar verdi. İsmayıl qərardan apellyasiya şikayəti verdi. 13.01.2016-cı il tarixdə hakim İsfəndiyar Şəfiyev onlara yaşamaq hüququ verdi.

Məhkəmə qərarı əvvəlcədən hazırlanmışdı. Şahidlərin hamısı onların yaxınları idi. Bizim şahidlər isə dindirilmədi.

Atam İsmayılın evdən çıxarılması ilə əlaqədar Ali Məhkəməyə şikayət verdi. 28.12.2016-cı il tarixdə məhkəməyə gedəndə İsmayıl dedi ki, xərc çəkib getməyin, onsuz da mənim xeyrimə qərar veriləcək. Elə də oldu, hakim Ələsgər Əliyev atamın iddiasını rədd etdi. Məhkəmədən bir həftə qabaq İsmayıl Bakıya hakimi görmək üçün getmişdi, gələndən deyirdi işi həll etdim.

Hakimlərin haqsızlığı ucbatından əziyyət çəkən atam yenidən məhkəməyə "Ləyaqətsiz vərəsə" iddia ərizəsi verdi. 03.08.2016-cı ildə hakim Mahir Niftəliyev iddianı rədd etdi. Bundan sonra atam Apellyasiya şikayəti verdi. Hakim Fikrət Mehdiyev 16.12.2016-cı il, saat 15:00-da məhkəmə baxışı olmalı idi. Gözlədik, hakim gəlmədi. 18:15-də hakimin köməkçisi zəng vurdu ki, məhkəməyə gəlin. Yenidən məhkəmə getdik və zalının qapısının ağzındaca iddiamızın rədd edilməsi haqda qərar verildi. Qərarı bizə vermədilər ki, vaxt keçsin, Ali Məhkəməyə müraciət edə bilməyək.

Nəhayət, Ali Məhkəməyə müraciət etdik. Aylar keçdi, məhkəmədən xəbər çıxmadı. Sonradan məlum oldu ki, hakim Vafəddin İbayev iddiaçının xəbəri olmadan qərar verib.




28.01.2017-ci ildə atam rəhmətə getdi. Həmin gün Nahidə atamı yenə döymüşdü. Ortaya vərəsəlik söhbəti çıxanda, əsəbləşdilər və mənim üstümə hücum çəkdilər ki, səni də atanın arxasınca göndərəcəyik.

İsmayıl evə Əmlak Komitəsindan nümayəndə gətirdi ki, özü üçün sənəd çıxarsın. Mən razılıq vermədim ki, notarius pay ayırıb və möhürü ilə təsdiq edib. Bu zaman İsmayıl təhqiqatçıya zəng vurdu ki, dünən rəisinizin yanında söbət etdik, indi ölçü götürülməsinə mane olur. Biraz keçmişdi ki, polis gəldi, mənə təzyiq göstərmək istədi. Mən, "DİN-ə zəng vuracam, polis rəisi nə vaxtdan ev bölür?", - dedim.

Atam mənə vaxtilə vərəsəlik vermişdi. Qardaş və bacım da öz paylarını mənə vermişdilər, 7/8 pay mənə, 1 pay da qardaşım İsmayıla ayrılmışdı. Evə ekspert gətirdilər. 24.07.2018-ci il tarixdə məhkəmə oldu və ekspertin "ev bölünmür" rəyi təsdiq olundu. 06.09.2018-ci il tarixində mənim xəbərim olmadan Nahidə evə qeydiyyata düşüb.

Evdə hər gün dava düşürdü, elə gün olurdu ki, 2 dəfə polis gəlirdi. Nahidə sayğacdan qazı kəsir, sonra açırdı ki, nəticədə 6 nəfər evdə zəhərlənə bilərdi. Bir sözlə, yaşamağa imkan vermirdilər. Evin pəncərələrini daşla qırırlardılar. Dəfələrlə başımdan xəsarətlər almışam. 10 ildən artıqdır ki, hər gün polisə şikayət edirik.

Yaşamaq mümkün olmadığından, İsmayıla kompensasiya verib ayırmaq məqsədilə məhkəməyə iddia ərizəsi verdim. 13.03.2020-il tarixdə məhkəmə oldu. Hakim Zaur Hümbətov evə baxış keçirdi və gedəndən 20 dəqiqəq sonra keçmiş köməkçisi Ayaz zəng vurdu ki, məhkəməyə gəl. Məhkəmə başlayana kimi Ayaz İsmayıl və Nahidəni zala saldı, mənə dedi ki, gözlə. Nəhayət, hakim iddiamı rədd etdi, İsmayıl ilə birlikdə yaşamaq hüququ verdi.

Məhkəmədən sonra Ayaz İsmayılla birgə zaldan çıxdı. Belə hərəkətlər məhkəməyə müdaxiləni təsdiq edir. Mən şikayət edəcəyimi deyəndə Ayaz mənə bildiridi ki, səndən Prokurorluğa şikayət edib, cəza verdirərəm.

03.06.2021-ci il tarixdə apellyasiya şikayəti verdim. Hakim Rəşad Məmmədov dedi ki, ev hərraca çıxarılmalı, pulu bölünməlidir, çünki yola getmirsiniz.

01.03.2024-cü il tarixdə "evə köçrülmə və yerin təyini" haqda Apellyasiya Məhkəməsi oldu. Hakim Fikrət Mehdiyevdən etiraz etdim, buna baxmayaraq məhkəmə davam etdi.

Apellyasiya Məhkəməsindən sonra həyət qapısının ağzında Nahidə taxta ilə üstümə hücum çəkdi. Evə qaçdım, İsmayıl və Nahidə evə girərək məni döydülər. İsmayıl əlindəki biçaqla başımdan xəsarət yetirdi, "çıx evdən, məhkəmə məni evə köçürüb, çıxmasan atanın arxasınca səni də göndərəcəm", - dedi. Polis gəldi, evdə divarda qan izləri var idi.Lakin polis cinayət işi yoxdur deyib getdi. Gərək mən ölüm, sora cinayət olsun?!

Mən evin hərraca çıxarılması ilə bağlı Gəncə Şəhər Məhkəməsinə iddia ərizəsi verdim. Lakin bu dəfə də qəbul edilmədi. Başa düşə bilmirəm, mənə 7/8 pay düşməsinə baxmayaraq, nə payımdan istifadə edə, nə də evi sata bilmirəm. Belə vərəsəlik qanununu kimə lazımdı?! Huquq mühafizə orqanları da hər şeyi bilir, nəyinsə xətrinə susur, göz yumurlar. Yəqin cinayət olacağını gözləyirlər.

Başda hakimlər olmaqla, hüquq mühafizə orqanlarının qanunsuzluğa imza atmaları məni artıq usandırıb. Bu qurumlar cinayətin qarşısını almaqdansa, cinayətə yol açırlar".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adlarıq qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Papaq nə üçün şərəf rəmzi hesab olunur?

## Və yaxud sələflərimiz XX əsrdə bağışlanılmaz səhvlər etdilərsə də, hər halda çoxu gəzdirdikləri papaqlara layiq olublar...

Hacı Zeynalabdin Tağıyevin ordenli, medallı böyük portretini hamı görüb. Onun mülki rütbəsi ordunun general-leytenantına bərabər idi. Əcəldən aman olsa "millət atası" kimi şöhrət qazanmış hacının ordenlərindən, boynundan sallanmış "Müqəddəs Anna" xaçından da danışacağıq. Hələlik isə o rəhmətliyin rəsmi vis-mundirindən, başına qoyduğu "əmiri" adlanan papağından söhbət açaq.



Firuz HAŞIMOV

Ancaq "Həqiqi məxfi dövlət müşaviri" rütbəsini daşıyanlar belə vis-mundir geyə bilərdilər. Şpaqa və lələkli üç künc şlyapa da öz yerində. Portretdə biz ordenləri, medalları, hətta şpaqanı görürük. Amma lələkli üç künc şlyapa əvəzinə, Hacı başına adi adamların gəzdirdiyi "əmiri" adlanan papağı qoyub. Bəli, Hacı Zeynalabdin ömrünün sonuna qədər əsl-nəcabətini, kimliyini unutmadı, nə bütün hacıların gəzdirdikləri "daqqa" papağı qoydu, nə də rəsmi görüşlərdə üç künc şlyapa geydi.

Məşhur milyonçu Musa Nağıyevin də papağı kasıbların geydiyi papaqlardandır. O da ömrünün sonuna qədər sabunçulu saman satan kişinin oğlu olmasını gizlətmədi.

Quzey Azərbaycanda isə təxminən 30 papaq forması mövcud idi. İftixar hissi ilə deyə bilərəm ki, xalqımıza xas olan misilsiz rəhmdillik, insaniyyətlik özünü sənətkarlıqda da biruzə vermişdi. Bizim dabbağlar heç vaxt xalq içində "buxara" kimi tanınmış dəri tamamlamayıblar(Dabbağların leksikonunda "tamamlamaq" göndən nəyinsə düzəldilməsi deməkdir). Hamı bilir ki, "buxara" papaq adlanan baş örtüyü üçün neçə təzə doğulmuş quzu tələf edilir. Azərbaycanda heç kim, heç vaxt, heç bir pulun müqabilində belə işə əl qoymayıb. Bu cür dəriləri bizim tacirlər uzun qərinələr boyu Buxara əmirliyindən gətirdikləri üçün onlara "buxara" deyilirdi. Qalan papaqlar üçün isə dəriləri bizim dabbağlar hazırlayardılar.



**Papağa tez-tez əl vurmaq, natəmiz yerə qoymaq, hirslənib yerə vurmaq, ona vaxt-bivaxt and içmək böyük qəbahət sayılırdı...**

Şərəf rəmzi hesab olunan papaq da bizim vətənimizdə orta əsrlərin əmmaməsi kimi vəsiqə rolunu oynayıb. Məsələn, çodarın (at alverçisinin) ağzı nə idi ki, şəcərəli xanzadənin papağını qoyaydıg

Kişi başından papağı bir dəstəmaz alanda, bir də evində olanda, əndərunda istirahət zamanı çıxarardı. Papağa tez-tez əl vurmaq, natəmiz yerə qoymaq, hirslənib Allah eləməsin, yerə vurmaq, ona vaxt-bivaxt and içmək böyük qəbahət sayılırdı.

İndi də bu papaq adlanna fikir verin: "Əmiri", "Qazamatı", "Qələmi", "İkiüzlü əmiri", "Dallayi", "Daqqa", "Pəhləvi", "Motal", "Şikari".

Bunlardan başqa, el içində seyid, misgər, xəlfə, həmşəri papaqları da tanınırdı. Həmşəri papağı adətən dəridən yox, keçədən düzəldilirdi. Vaxtilə Bakıda hamballıq edən, ən ağır işləri görən cənublu qardaşlarımız həmşərilər məhz belə papaqları ilə yerli camaatdan seçilirdilər.

Telekanallardan nümayiş etdirilən kliplərə, ya da klassik əsərlərin səhnələşdirilmiş variantlarına tamaşa edəndə adamın ürəyi ağrıyır. İlahi, bunlar adi çərkəzi çuxanın nə cür geyildiyini, vəznənin miqdarını, adi xəncərin necə bağlandığını da bilmirlər. Artistlər başlarına nə gəldi qoyurlar, bəziləri utanıb-qızarmadan rus "mujik"lərinin çəp yaxalı köynəklərini də geyirlər.

Tariximiz, irsimiz bir ovuc nadanın əli ilə tanınmaz hala salınır. İllər uzunu kinostudiyanı inhisara götürərək pul dağarcığına döndərmiş üç-dörd lotunun sayəsində bütün tarixi şəxsiyyətlər gorbagor edildilər. "Nəsimi", "Nizami", "Dədə Qorqud", "Babək" filmlərində istifadə olunmuş əlbisələrə, rekvizit və butaforiyaya ani nəzər kifayətdir ki, xalturaçı rəssamların tariximizin başına hansı oyunlar gətirdiklərini deyəsən.

Sələflərimiz XX əsrdə bağışlanılmaz səhvlər etdilərsə də, hər halda çoxu gəzdirdikləri papaqlara layiq olublar. Bu, həmin millətdir ki, onun neçə il ərzində fasiləsiz getmiş ara müharibələrinə baxmayaraq, Səfəvi qvardiyası - qorçu alayları qüdrətli Süleymani Qanuninin say-seçmə ordularının gözlərinin odunu almışdılar. Avropanı diz üstə çökdürə bilmiş sultan Süleyman bir ovuc Azərbaycan azəri cəngavəri (Azərbaycan türkü - red.) ilə bacarmadı. Reklamlaşdırılmış, barələrində onlarla kino çəkilmiş, romanlar yazılmış ninziyalar, samuraylar bizim əsl milli xassə alaylarının cəngavərləri ilə müqayisədə çox cılızdılar. Səfəvi ordeninin ölümün gözlərinə dik baxan müridləri, əfsanəvi qorçuları barədə indiki gənclik heç nə bilmir. Axı onlar zaman-zaman döyüş meydanlarında elə xarüqələr göstəriblər ki, indi məxəzlərə müraciət edəndə adamın ayaqları altından yer qaçır. Bizim şanlı cəngavərlərimizin tarixləri üzərinə bir tərəfdən bolşevik "alimlər", şovinist fars təəsübkeşləri daş qoydularsa, digər tərəfdən isə öz doğma tədqiqatçılarımız özlərini elə apardılar ki, guya tarixdə ümumiyyətlə belə şeylər olmayıb.

Bu həmin millətdir ki, onun Laçın bəy kimi oğlu kiçik dəstə ilə Əlincə qalasının xarabalığında düz 6 ay Paskeviçin ordusuna qarşı kişi kimi vuruşmuşdu. Millətin "Qələmi" papaq geymiş say-seçmə kübarları Gəncə üsyanı zamanı XI Orduya qarşı son nəfəslərinə qədər vuruşdular, tikə-tikə doğrandılarsa da, geriyə ayaq qoymadılar. "Dallayi", "Motal" papaq geyən qaçaqlarımız, hətta yol kəsən quldurlarımız belə qadın olan qafiləyə, karvana toxunmurdular, bunu şərəflərinə sığışdırmazdılar.

O gün hansısa heyvərə qəzetdə oxuyuram ki, heç demə, neçə il davam etmiş ateşkəs türkü (??) çökdürüb və bu, bizə heç nə verməyib. Atəşkəs məhz niyə türkü çökdürüb, bax, mən bu əsrarı qana bilmədim. Türk deyəndə yazı yiyəsi kimi nəzərdə tutur, qırğızları, yoxsa Anadolu türklərini?

İkincisi, bu həngamənin bizə heç nə vermədiyini demək ədalətsizlikdir. Atəşkəsin bərəkətindəndir ki, siyasi boşboğazlığı özlərinə sənət seçmiş heyvərələrin ikinci nəsli ərsəyə çatıb. Birinci eşalonda olanların hamısı şəhərin müxtəlif yerlərində obyekt, mənzil, mağaza yiyəsi olub. İndi bunlar ikinci parazit sürüsünü yemləyib camaatın üstünə qışqırdırlar. Dəstəmaz alıb Qurana əl basmağa hazıram ki, müharibə başlasa bu parazitlərin heç biri də cəbhəyə getməyəcək(Necə ki, müharibə başladı, özü də istədiyimiz kimi Şəhadətə çatanların, yaralananların arasında bir vəzifə sahibinin, bir biznesmenin, bir siyasi boşboğazın balası yoxdur. Bütün səlib dünyasının total hücumuna qarşı xalqı ayağa qaldırıb zəfərə çatdırmış müzəffər Prezidentin yaxın ətrafında nuvoriş güruhunu görəndə ürəyim ağrıyır, çünki bunlara etibar yoxdur. Analar saç yolub, "Toy görməyən balam vay" deyəndə bu binamus bandanın törəmələri restoranlarda kefə baxırlar).

Atəşkəsin türkü "çökdürməsindən" danışaq. Heç bir tarixçi inkar edə bilməz ki, türk qövmü qlobal miqyasda XVII əsrin əvvəllərindən çökməyə başlayıb. Orta Asiya və Sibir türklərinin əsrlər boyu necə güzəran keçirdiklərini və indinin özündə də nə etdiklərini yaxşı bilirik. Müasir Türkiyəni də mason-sionist qüvvələri elə hala salıb ki, bir mərsiyəxanları çatışmır. Türkü atəşkəs yox, əllərindən iki qəpiklik iş gəlməyən boşboğazlar, ABŞ-dan, mason agenturasından tula payı almağı ar bilməyənlər, bütün müqəddəs, ülvi məfhumları çirkaba batırmış zinakarlar, axmaq təbliğatla milləti çaş-baş etmiş provokatorlar çökdürüb.

Atəşkəs pisdir, mən də razı, deyirsiniz ki, nəinki mərkəzdə, hətta yerlərdə də bütün iqtidar məmurları rüşvətxordurlar, etiraz etmirəm. Onda nə olardı, döşlərinə fəxrlə döyüb "mən türkəm, qalan millətlər bizim yanımızda heç nədir" deyən avara sürüsünün liderləri əcnəbilərdən aldıqları qrantlardan, cangüdənlərə, katibələrə, cici-bacılarına, ziyafətlərinə xərc etdikləri pullardan bir az qənaət edib yataq dustağı olanlara, şəhid ailələrinə, yetim-yesirə verəydilər.

Bu torpağın dinini-imanını, el şərəfini göz bəbəyi kimi qoruyan "Əmiri" papaq geyən kişiləri olub. Belə comərdlər daşıdıqları papaqlara da layiq olublar, bundan böyük məsuliyyət hissi duyublar. Papağa "Əmiri" boş-boşuna deyilməyib, onu geyənlərin məclisində hər gədə-güdə hərcayılıq edə bilməzdi.

Vaxtilə ''Qazamatı" papaq geymiş ziyalılarımız - millətin qaymağı baş əymədən ölüm kameralarına üz tutdular. ''İkiüzlü əmiri" papaq qoyanlar ya cəlayivətən oldular, ya da qeyri-bərabər döyüşlərdə məhv edildilər.

"Motal" papaq gəzdirənlər məmləkəti gülzarə, bağlı-bağatlı cənnətə döndərdlər (onların əkdiklərini biz naxələflər hələ indiyə qədər doğrayıb qurtarmamışıq), yeri gələndə dəhrə, çomaq, qəmə götürərək kəndin, yurdun namusunu layiqincə qorudular. Biz isə nəinki sələflərimizin zəhmətini yerə vurduq, o qeyrət mücəssəmələrinin gəzdirdikləri papaqlarını geymək o yana (bu hüququ biz çoxdan itirmişik), hətta adlarını da unutmuşuq.

*(Ardı var)*

“Bütün ümumtəhsil məktəblərində vaxtaşırı narkomaniya ilə bağlı görüşlər, tədbirlər keçirilir. Burada həmin rayonun nüfuzlu adamları, psixoloqlar, polis işçiləri və s. iştirak edir, məktəblilərlə söhbət aparırlar. Mənim də belə tədbirlərdə çıxışlarım olub. Lakin burada bir şeyi qeyd edim ki, belə tədbirlər keçiriləndə zalda məktəbin ən sakit, yaxşı oxuyan, ictimaiyyətçi şagirdlərini otuzdururlar. Həmin uşaqlar müəllimlərin onlar üçün əvvəlcədən hazırladıqları sualları çıxışçılara ünvanlayırlar…”



“Həyatda uğur qazanan insanlar məktəblərə gələrək narkomaniyadan yox, iş təcrübələrindən danışsalar, daha yaxşı olar”

# “Əsasən problemli ailələrin uşaqları narkotikə meyl edirlər”

## Tanınmış yazıçı-publisist Şəhla Ağbulud: “Yeniyetmə və gənclər bilməlidir ki, bu yolun sonu əzablı ölümdür”

“Narkotik alüdəçilərinin yaş həddi getdikcə aşağı düşür. Gənclər arasında narkomanların sayı artır və son vaxtlar demək olar ki, yeniyetmələr də bu bəlaya düçar olurlar. Bununla, cinayətlərin sayı da çoxalır”.

Bu haqda suallarımızı cavablandıran yazıçı-publisist, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Abşeron bölməsinin sədri, “Abşeron” qəzetinin baş redaktoru Şəhla Ağbulud bildirib.

Şəhla xanım deyir ki, Azərbaycanda da yeniyetmə və gənclər arasında narkomanların sayının artması danılmazdır: “Təəssüf ki, bu, Azərbaycandan da yan keçməyib. Bütün dünyada olduğu kimi, respublikamızda da narkomaniya ciddi narahatçılıq doğurur və bu barədə bir sıra mübarizə tədbirləri görülür. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” icra olunmaqdadır”.

Şəhla Ağbulud hesab edir ki, yeniyetmələrdə narkotik aludəçiliyi ilk növbədə ailədə düzgün olmayan tərbiyədən irəli gəlir: “Əsasən problemli ailələrin uşaqları narkotikə meyl edirlər. İmkanlı ailələrin uşaqları da çox vaxt narkotik alverçilərinin “ov”una çevrilirlər, onları aldadaraq bu yola çəkirlər. Bəzən də gənclər macəra axtarışı ilə narkotik qəbul edirlər. Vaxtında ailə, məktəb həmin uşağın narkotik istifadə etdiyini aşkarlayıb qarşısını almasa, bu yoldan geri dönüş çətin olur. Sonra həmin uşaqlar bəzən elə məktəbdə həmyaşıdlarına zərər vurur, cinayət törədirlər. Odur ki, uşaqları nəzarətdə saxlamaq, onların tanımadıqları adamlarla yaxınlıq etməməsi, onlardan heç nə almaması-nı tapşırmaq lazımdır”.

Şəhla xanım bildirir ki, yeniyetmə və gənclər hər zaman valideyn nəsihətinə önəm verməlidirlər: “Çox vaxt uşaqlar ata-anaların öyüd-nəsihətinə əhəmiyyət vermirlər, özlərini yeni dünyanın adamları hesab edirlər, kimlərinsə sözünə uyub, narkotik qəbul edirlər. Bununla da özlərini demək olar ki, oda atırlar. Bilmirlər ki, bu yolun sonu əzablı ölümdür.

Belə halda məktəbdə müəllimlər çox diqqətli olmalıdırlar, sinfə daxil olanda əvvəlcə bütün uşaqları nəzərdən keçirməli, şübhələndiyi şagird haqqında məktəb rəhbərliyinə məlumat verməlidirlər.

Bütün ümumtəhsil məktəblərində vaxtaşırı narkomaniya ilə bağlı görüşlər, tədbirlər keçirilir. Burada həmin rayonun nüfuzlu adamları, psixoloqlar, polis işçiləri və s. iştirak edir, məktəblilərlə söhbət aparırlar. Mənim də belə tədbirlərdə çıxışlarım olub. Lakin burada bir şeyi qeyd edim ki, belə tədbirlər keçiriləndə zalda məktəbin ən sakit, yaxşı oxuyan, ictimaiyyətçi şagirdlərini otuzdururlar. Həmin uşaqlar müəllimlərin onlar üçün əvvəlcədən hazırladıqları sualları çıxışçılara ünvanlayırlar.

Şəhla xanım bildirir ki, yeniyetmə və gənclər hər zaman valideyn nəsihətinə önəm verməlidirlər: “Çox vaxt uşaqlar ata-analarının öyüd-nəsihətinə əhəmiyyət vermirlər, özlərini yeni dünyanın adamları hesab edirlər, kimlərinsə sözünə uyub, narkotik qəbul edirlər. Bununla da özlərini demək olar ki, oda atırlar. Bilmirlər ki, bu yolun sonu əzablı ölümdür...

Əslində, bu cür tədbirlərdə dərslərdən geri qalan, nizam-intizamsız uşaqlar daha çox iştirak etməlidirlər. Ümumilikdə isə adi söhbət etməklə çox şey əldə etmək olmaz. Narkotikaya meylli uşaqları belə söhbətlər bəzən hətta maraqlandıra da bilər.

Uşaqların dərsə davamlılığı ciddi nəzarətdə saxlanılmalıdır. Şagirdlər mütləq məktəbli forması geyinməlidirlər. Telefonları yalnız danışmaq üçün olmalıdır. Məktəbə bahalı telefon gətirməməlidirlər”.

Şəhla xanım onu da vurğuladı ki, məktəb nümayəndələri tərəfindən zaman-zaman valideynlərlə görüşlər keçirilməlidir: “Valideynlərlə söhbət aparılmalıdır. Özləri və övladları məktəbin qayda-qanunlarına riayət etməli, məktəbin ictimai həyatında fəal iştirak etməlidirlər. Heç bir uşaq kənarda qalmamalıdır. Valideynləri iştirak edə bilməyən uşaqlara digər valideynlər hamilik etməlidirlər. İmkansız ailələrin uşaqlarına məktəbli forması pulsuz verilməlidir. Vaxtaşırı həkimlər məktəbə gəlib uşaqları müayinə etməli, hər dəfə bir neçə sinifdə yoluxucu xəstəliklərdən necə qorunmaq və narkomaniyanın fəsadları barədə qısa məlumat verməlidirlər”.

Şəhla Ağbulud bu fikirdədir ki, məktəblərdə təşkil olunan tədbirlərdə cəmiyyətdə müəyyən mövqe sahibi olan insanlar da iştirak etməlidir: “Uşaqların görüşünə təcrübəli iş adamları, idarə, təşkilat rəhbərləri, biznesmenlər, ustalar, kosmetoloqlar, bərbərlər, alimlər, yazıçılar və həyatda uğur qazanan bu kimi insanlar gələrək narkomaniyadan yox, iş təcrübələrindən danışsalar, daha yaxşı olar. Savadlı din xadimləri ilə görüşlərdən də uşaqlar faydalana bilərlər.

Məktəblərdə bəzən bədən tərbiyəsi, rəsm, nəğmə, əmək dərslərinə əhəmiyyət vermirlər. Bu dərslər hətta çox vaxt keçirilmir, yaxud olduqca maraqsız keçirilir. Elə uşaqlar var ki, dərslərdən geri qalır, lakin nəğmə dərsində oxumaq, əylənmək, digəri rəsm çəkməyi öyrənmək istəyir. Sənət sahibi olmaq istəyənlər də az deyil. Hiperaktiv uşaqlar var ki, çox enerjili olurlar, onlar idman dərsini xoşlayırlar. Lakin məktəblərdə idmanla necə məşğul olurlar? Bir çox məktəblərdə müəllim topu uşaqlara verib öz işini görür.

Uşaqların hər birinin istəyi və bacarığı nəzərə alınmalıdır. Yaxşı oxuya bilmədiyinə görə təhqir olunmamalıdır. Şagirdlər arasında mehribançılıq yaradılmalıdır. Hər biri tədbirlərə cəlb olunmalıdır. Bacarmasa belə, səssiz rol verilməlidir. Hamı səhnəyə çıxmalıdır. Onlarla, yüzlərlə insanın ona baxdığını görməlidir. Məsuliyyət hissi güclənməlidir. Özünə hörmət etməli, özünü gərəkli hiss etməlidir.

Uşağa birbaşa nədənsə danışıb, pisləyib, qadağan edəndə onda həmin şeyə maraq daha da güclənir. Odur ki, narkomaniyadan çox danışmaq yox, uşaqların diqqətini başqa yerə yönəltmək lazımdır”.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**
**Stopnarkotik.az**




# Ümumtürk ədəbi dilinin yaradılması...

## ...bu, strateji milli məsələdir

Bu gün dünyada mənə məlum olan 28 türk dialekti mövcuddur. Bu günə mövcud olan altı müstəqil türk dövlətində - Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstanda - xeyli sayda türk sözləri kənara atılaraq ərəb, fars və s. dillərdən çoxlu sayda sözlər daxil edilib. Bununla, «ədəbi dil" tərtib edilərək, rəsmi dövlət dili statusunda işlədilməkdədir.

*(Əvvəli ötən sayımızda)*

Türk dili məsələsində mövcud olan böyük problemlərdən biri də odur ki, milli kimliyimizi müəyyən edən bu məsələdə bolşevik rus imperiyasının türkü türkə yadlaşdırmaq üçün onu Azərbaycan dili, Özbək dili, Türkmən dili, Qazax dili, Tatar dili və s. adlandırıb, bu dar çərçivələrdə zehnimizə vurduğu qandalı hələ də qıra bilmirik.

"Təzadlar" qəzetinin 21.02.2023-cü il tarixli sayında Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına dilçilik institutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli dilimiz haqqında açıqlamasında deyir: "Dilimizdə yeni sözlərin keçməsi inteqrasiyadır və bu, bizim dünya mədəniyyəti ilə əlaqəmizin nəticəsidir. Bunsuz keçinmək mümkün deyil. Amma qorxulu tərəfi odur ki, dilimizdə ifadə edəcəyimiz söz mövcud olduğu halda onun qarşılığını əcnəbi dildən gətiririk".

Bir qədər sonra professor açıqlamasında deyir, - "Əgər sözün qarşılıqlı dialektimizdə yoxdursa, başqa türkdilli xalqlardan götürmək olar. Orada da yoxdursa, əcnəbi sözlərdən götürmək olar... Bu gün alınma sözlər dilə ehtiyacdan gələnlərdir. Məsələn, kompüter sözünü nə ilə əvəz edə bilərdik. Bütün dünyanın işlətdiyini biz də işlədirik".

Birincisi, dilimizə xarici sözlərin keçməsi inteqrasiya yox, assimilyasiyadır və bunun dünya mədəniyyəti ilə əlaqələrə heç biir dəxli yoxdur. Dünya mədəniyyəti ilə əlaqələrin nəticəsi Üzeyir Hacıbəyovun Avropanın musiqili teatr janrı olan operanın milli musiqimizlə sintezindən yaranan "Leyli və Məcnun" operası, Vaqif Mustafazadənin milli muğam ilə zənci cazının sintezindən yaratdığı yeni musiqi növüdür.

"Dialektimizdə olmayan sözü başqa türkdilli xalqlardan götürmək olar", - deyən professor Türkiyə türkcəsində kompyüter sözünün qarşılıqlı olan BİLGİSAYAR olduğu halda, - "kompüter sözünü nə ilə əvəz edə bilərdik. Bütün dünyanın işlətdiyini biz də işlədirik", - deyir. Farslar isə kompyüter sözünü kompyüterin heç bir xüsusiyyətinə uyğun gəlməyən, hətta öz-özlüyündə heç bir məna ifadə etməyən YARANE hərf birləşməsini kompyütərə şamil edərək, fars dilində bir söz artırmaqla bərabər ona qarşılıq yaratmışlar. Farslar, bu gün bizim diş pastası, diş məcunu kimi rus, ərəb sözlərindən istifadə edərək ifadə etdiyimizi, "xəmire dəndan" (diş xəmiri) adlandırır. Hansı ki, biz bunu öz sözlərimiz olan DİŞ XƏMİRİ olaraq ifadə edə bilərik. Hər hansı bir rəngə başqa rəng qatdığa o əvvəlki rəng olmaqdan çıxdığı, ağ paltara başqa rəngdən vurulan yamaq onu eybəcərləşdiyi kimi dilimizə başqa millətlərin dilindən yad sözləri pərçim etməklə, biz özümüz-özümüzə yadlaşırıq.

Ən pisi də odur ki, təkcə Azərbaycanda deyil, başqa türk dövlətlərində, xüsusilə müstəqil olmayan türk toplumlarında bu özgələşmə prosesi çox sürətlə gedir. Bunun qarşısının alınmasının, eləcə də bu günə müstəqil olan türk dövlətlərini birləşdirən Türk Dövlətləri Təşkilatında bütün iqtisadi-ictimai sahələr üzrə inteqrasiyanın sürətləndirilməsini təmin etmək üçün ilk növbədə Ümumtürk Ədəbi Dilinin yaradılaraq bütün türk dövlətlərində və toplumlarında tədris, təbliğ edilməsi son dərəcədə fövqəladə əhəmiyyət kəsb edir. Bir çoxları Türkiyənin ən böyük və güclü türk dödvləti olduğunu və Türkiyə türkcəsinin BMT-də beynəlxalq dil olaraq tanındığına istinad edərək Türkiyə türkcəsini ən azından müvəqqəti olaraq ümumtürk dili olaraq qəbul etməsini təklif edir. Məsələ bundadır ki, bütün türk toplumlarının Türkiyə türkcəsini akademik səviyyədə mənimsəməsi üçün 15-20 il müddət lazımdır. Bundan sonra bütün türklər türk milləti olaraq bütövləşib nəhəngləşsə də, onun dili bu günkü kimi ərəb, fars və s. dillərdən götürülmüş sözlərdən zəngin, ümumilikdə isə beynəlxalq dillərlə müqayisədə kasad, primitiv dil olaraq qalacaq. İstər-istəməz bir müddət sonra bu naqisliyi aradan qaldırmaq zərurəti hökmən yaranacaq. Bu vaxt kəsimində isə başqa türk toplumlarında olan türk sözlərini xeyli hissəsi yaddaşlardan silinib, mənbələrdən yoxa çıxacaq. Bu böyük itkini bərpa etmək isə mümkün olmayacaq.

Lakin bu gün Ümumtürk Ədəbi Dili yaradılaraq tədris və təbliğ edilərsə, bizim üçün çox böyük əhəmiyyətə malik olan vaxt və söz fondu itkisinə yol verməyərək, türk dilini dünyanın ən zəngin və xas türk dilinə çevirməklə bərabər, həm monolit türk milli birliyini, həm də TDT-nda iqtisadi-ictimai inteqrasiyanı əhəmiyyətli dərəcədə sürətləndirmiş olarıq.

Bəzi mütəxəssislər türk dili dialektlərinin uzun yüzilliklər müxtəlif istiqamətlərdə inkişaf etməsi səbəbindən vahid türk dili deyil, türk toplumlarının dialektini iki qrupa bölərək iki ümumtürk ədəbi dili yaratmağın mümkün olması barədə də fikir söyləyirlər. Fikrimcə, hətta bu halda belə türk milli monolit birliyini təmin etmək olar və edilməlidir də.

Bu gün Avropa ölkələrində orta məktəbi bitirənlər 2-4 dili mükəmməl bilirlər. Bir çox Avropa dövlətlərində, Kanadada 2-3 dil rəsmi dövlət dilidir. Hətta 11-37 rəsmi dilə malik ölkələr də mövcuddur. Biz hətta iki ümumtürk ədəbi dili yaratmalı olsaq belə, hər iki dilə türk dövlətlərində bərabər hüquqlu rəsmi dövlət dili statusu verərək orta məktəblərdə ciddi tədris edilib, bütün türk toplumlarında geniş təbliğ edilməsini təmin etməliyik. Bu halda 15-20 ildən sonra hər iki ümumtürk ədəbi dilini akademik səviyyədə bilən yetərli sayda insanlara, ən müxtəlif sahədə fəaliyyət göstərən yüksək səviyyəli ixtisasa malik mütəxəssislərə malik olacağıq. Bu isə türk milli birliyi qarşısında duran ən nəhəng strateji maneənin aradan qadırıldığı demək olacaq. Yəni bu günədək müxtəlif toplumlarda fərqli türk dialektlərində danışıb, bəzən hətta məişət müstəvisində bir-birini başa düşməyən insanlar arasında, həm də bütün türk toplumları arasında iqtisadi, ictimai, elmi, texniki müstəvilərdə inteqrasiya proseslərinə dialekt müxtəlifliyi səbəbindən heç bir maneə qalmaycağından inteqrasiya prosesləri çox sürətlənmiş olacaq.




Türk milli varlığının mövcudluğunu və inkişafının təmin edilməsi baxımından zəruri olan məsələlərdən biri də yeni anadan olan uşaqlara türk adlarının verilməsinin hüquqi-izqibati cəhətdən təmin edilməsidir. Uşaqlara başqa millətə məxsus adların, soyadların verilməsi uşağın yaxınlarının uşağa olan məhəbbətinin istər-istəməz şüuraltı onun adının məxsus olduğu millətə qarşı müsbət münasibətə calanmış olur ki, bu da insanların assimilyasiya prosesinin ilkin mərhələsini formalaşdırır. Bu üsuldan ərəblər türk millətini assimilyasiya və təhqir etmək üçün gen-bol istifadə etmişlər. Həm də onlar bunu ideoloji əsasda etdiyindən və həmin ideologiyanın əsiri olanların bu gün də mövcud olduğundan Allahqulu, Məhəmmədqulu, Əliqulu, hətta Kəlbəli (yəni "Əlinin iti") kimi insanlarımızı millətimizi aşağılayan adlar bu gün də mövcuddur. Rusiyanın xüsusilə şimal hissəsində yaşayan türk insanlarına rus ad və soyadları verilməsi, İran adlandırılan yerdə şovinist fars faşizminin ölkənin 60 faizdən çoxunu təşkil edib, öz milli ərazilərində yaşayan türklərin öz uşaqlarına türk adı verilməsini belə qadağan etməsi türk milli varlığının məhz qətliam edilməsi üsuludur.

Türk dövlətləri və toplumlarının bütün türk adlarının kitab şəklində vahid fondlarda yığaraq türk dövlətlərində yeni doğulan türk uşaqlara başqa millətlərin adının verilməsinin qanunla qabağan edilməsi, müstəqil olmayan türk toplumlarında bu kitablar vasitəsilə türklərə öz uşaqlarına türk adlarının verilməsi təbliğ edilməlidir.

Türk dilimiz milli mənliyimiz, milli mövcudluğumuz, mədəniyyətimiz, mənəvi və əxlaqi dəyərlərimizin bünövrəsi, həm də vizit kartıdır. Buna görə də bütün iqtisadi-ictimai münasibətlərimiz, eləcə də bu münasibətlərimizin ifadəçisi, carçısı olan dilimizi bizə yad olub, bizi həyatın reallıqlarını düzgün dərk etməkdən sanındıran, başqa millətlərin inzibati, ideoloji, mədəni, mənəvi, əxlaqi və s. kölısinə çevirərək assimilyasiya edən saxta ideologiyalar, hətta ayrı-ayrı türk toplumlarının fərdi, korporativ maraqları və siyasi iddiaları əsasında deyil, bütün dünya türklərini vahid, monolit, nəhəng, güclü millətə çevirə biləcək elmi əsaslarla yaratmalıyıq.

**Şapur QASİMİ**



# Vətənlə yaşayan



**Lətif Xeyrulla oğlu Ağayev Birinci Qarabağ müharibəsində Vətən, torpaq uğrunda özünü fəda edərək, ölümsüzlüyə qovuşub. Şərəfli ölümü ilə milyonların qəlbində əzəmətli abidə ucaldan, bütöv bir xalqın iftixar mənbəyi, qürur yeri olan şəhid Lətif Ağayev 1974-cü ildə dağlar diyarı Lerik rayonunun Züvüç kəndində dünyaya göz açıb. Özünü dərk edən gündən Vətənin müqəddəsliyinə tapınan Lerikin qartal oğlu 1992-ci ilin aprelində düşməndən qisas almaq məqsədilə Milli Ordu sıralarına yola düşüb. Xidmət dövrünün ilk üç ayını Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən hissəsində çəkib. İlk gündən özünü qorxmaz bir igid kimi göstərib, burada hamının sevimlisinə çevrilib. Qaynar bölgələrə getmək, yağıya qarşı vuruşmaq istəyini nəzərə alıb, onu Qarabağ cəbhəsinə göndəriblər. Bundan sonra həyatında gərgin döyüş günləri başlanıb.**



Vətənpərvər, qorxmaz igid Vətənə, torpağa məhəbbəti sayəsində neçə-neçə ağır sınaqlardan üzüağ çıxıb. Ağdam və Ağdərə uğrunda keçirilən döyüş əməliyyatlarında əsl qəhrəmanlıq nümunəsi göstərib. Erməni dığalarına sarsıdıcı zərbələr vurmaqla, onlara qan qusdurub. Lətif əsgərlər arasında "Dağ Qartalı" adını da elə bu igidliyinə görə alıb.

1993-cü il mart ayının 9-da Vətən sevdalısı Ağdərədə düşmənlə qeyri-bərabər ölüm-dirim savaşına girib. Son damla qanına qədər döyüşüb, 18 yaşında şəhadətə yetib.

Şəhidliyi Vətən sevgisinin hər şeydən uca olduğunu bildirən Lətif Ağayevin 50 yaşı tamam oldu. Bu münasibətlə doğma kəndində xatirəsi yad edildi. Rayon rəsmilərinin, kənd sakinlərinin, şəhidin ailə üzvlərinin qatıldığı mərasimdə ölümsüz qəhrəmanın məzarı ziyarət olundu, önünə gül-çiçək dəstələri qoyuldu , əziz xatirəsi ehtiramla anıldı.

Çıxışlar zamanı Vətənin yaşaması naminə qan tökən, can qoyan şəhidin şərəfli ömür və döyüş yolundan söz açıldı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük haqq savaşımızda ordumuzun qazandığı möhtəşəm qələbədən, Azərbaycan xalqına məxsus tarixi Qarabağ torpaqlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qeyrətli oğulların göstərdiyi şücaətdən böyük iftixarla danışıldı.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Canavar sevgisi

## Akademik Rafael Hüseynova ithaf edirəm



**Allahverdi Eminov**

**Yalquzaq üçün oxunmuş "Segah"ı oxuyanda ötən illərə qayıtdım: ötən əsrin 50-ci, 60-cı illəriydi. Pedaqoji İnstitutun birinci kursunda oxuyurdum. A.Bakıxanov küçəsindəki məşhur "tələbə yataqxanası"nda mən də yer almışdım. 10 nömrəli trolleybus yataqxananın qarşısında dayanırdı. Küçənin solunda "aktyor evi"ydi. Üzeyir bəy Hacıbəyov küçəsindən Rəşid Behbudova çatmamış L.Şmidt küçəsinə istiqamətini dəyişirdi. Bir neçə dəfə yanımdakı boş yerdə nisbətən yaşlı, orta boylu dolu kişi oturardu. Səmimi siması xoş təsir oyadırdı. Bir gün sürücü maqnitafonu səsləndirdi, xatırlamıram oxuyanı. Həzin səsdən kişi fikrə daldı, sanki ötən illərə qayıtdı. Yanılmamışdım təsəvvürümdə.**

- Keçmişə qayıtdız, əmi - fikrimi gizlətmədim.

- Hə, oğul, cavanlığım xəyalımda canlandı, - astadan dilləndi. Bu dəm trolleybus dayanacaqda dayandı. Mən də, o kişi də düşdük. O, Opera və Balet Teatrının binasına tərəf getdi və mehribanlıqla dedi:

- Bu binada yaşayıram, buyurun evə dəvət edirəm. Və gülümsündü.

- Sağ olun Pedaqoji İnstitutda oxuyuram, yolum buradan keçir. - Məlumat verdim. Tanışlığımız belə başlandı bu adamla. Yenə həmin dayanacaqda o da mənimlə trolleybusa minirdi, bir yerdə otururduq. Məni bu adamın kimliyi maraqlandırdı və soruşdum ki, olmaya. - Sözümü kəsdi. - Bəli, Opera və Balet Teatrının aktyoru olmuşam. Ariyalar oxumuşam. Adım, soyadım Hüseynağa Mirbabayevdir. Yenə evə dəvət edirəm, bir stəkan çay içək. - Vaxtın varsa Gənc Tamaşaçılar Teatrının qarşısındakı skamyada oturaq. Sən maraqlı oğlansan, - deyib rahat skamyada əyləşdik. - Otuz il bu Opera Teatrında "Leyli və Məcnun", "Şah İsmayıl" operalarında oxumuşam. Amma.

O, gülümsündü, əliylə saçlarını qaydaya saldı.

- Təəccüblənmə, cavan dostum, qadın ariyalarını oxumuşam. - Boğazını arıtladı. Tərəf-müqabilim əsasən Hüseynqulu Sarabski və Ələvsət Sadıqov idi. Böyük və zəngin səs diapozonu vardı. - Saatına baxdı. - Dərsinə gecikmirsən ki? Səni saxlayıram, a!

- Xeyr, mən ikinci növbədə oxuyuram. Vaxta çox var. - Arxayınlıqla cavab verdim.

- Maraqlı əhvalatları yaşamısız, eləmi? - Soruşdum, xüsusilə otuz, qırxıncı illərdə! Ağır vaxtlar olub, qaçaq - quldurların bol zamanında.

- Quldurların xanəndələrlə işi olmazdı, bir ağız oxutdurardılar, hətta pul da təklif edərdilər, qorxumuzdan götürməzdik. Ən çox çəkindiyimiz canavarlardı, yollara çıxırdılar, parçalamağa adam axtarırdılar. - O, susdu, ona salam verən cavan oğlana təşəkkür elədi. - Operaya təzə gəlib, salyanlı Qulu Əsgərovdur, ecazkar səsə malikdir, gözləri götürmür. Onu Şah İsmayıl roluna hazırlaşdırıram.

- Bəlkə, maraqlı əhvalat danışasız, Hüseynağa müəllim? - Verdiyim suala utandım.

- Məni və Dadaş Şaraplını. - Bu adamın adını eşitməzsiz, toya dəvət etmişdilər, qonşu kəndin sədrinin oğluydu, demişdi rayon mərkəzində bazarın çıxışında gözləyin, maşın göndərəcəyəm. Biz gözlədik, maşın gəlib çıxmadı, vaxt isə daralırdı axşama doğru. Dadaş daha çox narahatdı, dedi ki, nəsə olub maşına, biz yola düşək, bir saatlıq yoldu, vaxtında çatarıq. Düşdük yolun canına. Dadaş söhbətcil adamdı, bu gün də görüşürük. Xeyli yolu getmişdik, maşından səs - soraq yoxuydu. Hava da qaralırdı, ətrafda səs - səmir eşidilmirdi. Dadaş udquna-udquna dedi ki, Hüseynağa, canavarlar ulaşırlar, deyəsən biz "qonaqlar" üçün darıxırlar. Səni də yoldan çıxartdım. Bu çöllükdə canavarlar bir yerdə qərar tutmurlar. - Bu söz dilindən çıxmışdı, qabağımızda, on beş, iyirmi metr aralıda tək erkək canavar göründü, çönbəlib bizə baxırdı. Mən dilləndim:

- Bizimki, buracan imiş, Dadaş, kəlmeyi - şəhadətimizi oxuyaq.

Dadaş dodaqaltı mızıldandı:

- Kəlmeyi - şəhadətin əvəzinə bir az muğam oxu, sənin "Segahın". - Susdu. - Hə, başla! Canavar olanda nə olar, o da canlıdır, şüuru var, eşidcək sənin səsini, qulaq asıb yerindən tərpənməyəcək, bizə yazığı gələcək.

Mən canımın vahiməsindən başladım "Segah"a, gah aşağı "düşür", gah "yuxarı" qalxırdım. Canavarı unutmuşdum, öz aləmimdə idim. Dadaş sonralar bildirdi ki, təxminən 20 dəqiqə oxumuşdan, canavar isə yerindən tərpənmirdi. Bu dəqiqələrdə uzaqdan maşının siqnalı eşidildi, canavar sakitcə durub əks istiqamətə getdi, arabir qanrılıb bizə baxırdı.

O ili mən yataqxanadan çıxıb kirayə ev tutdum, Sovetskidə Qameleya küçəsində, uşaqlıq və gənclik dostum Əkbərlə bir otaqda yaşamalı olduq. Mən daha "10 nömrəli" trolleybusla instituta gedəsi olmadım, Hüseynağa Hacıbababəyovla görüşə bilmədim. Çox sonralar, artıq bu nadir səsli xanəndə dünyasını dəyişmişdi. Amma bir neçə dəfə onun yaşadığı binanın fasadında mərmər lövhənin qarşısında dayanıb "Azərbaycan SSR-nin xalq artisti Hüseynağa Mirbabayev bu evdə yaşamışdır" sözlərini oxuyub, ona rəhmət diləyirdim. Bir ona təəssüflənirdim ölməz xanəndədən çox şeyi öyrənərdim, zəngin xatirələrini eşidərdim...



- o -

Mən "Canavar sevgisi", yaxud Muğamın doğulması" essesini ("Hürriyyət" qəzeti, 28 noyabr, 2023) yazanda bu məsələyə toxunmuşdum, canavarda instiktiv olaraq musiqiyə olan meylinə. Akademik Rafael Hüseynovun "Yalquzaq üçün oxunmuş "Segah" adlı qiymətli məaqləsi məni keçmişə qaytardı: "Dili yox idi içərisindən keçəni deyə (canavarı nəzərdə tuturdu - A.E.). Amma onun əvəzinə həmin gecənin şahidi Dadaş Şaraplı bunu hadisədən illər sonra tarzən Bəhram Mansurova söyləmişdi"... Tale elə gətirmişdi mən bu hadisəni Hüseynağa Hacıbababəyovun dilindən eşitmişdim.

***P.S. Neçə illər əvvəl Hüseynağa Mirbabayevin lent yazısı - oxusunu radioda dinləmişəm. Səsi hələ də qulaqlarımda səslənir.***

# Cəmiyyətimizin ən dəhşətli bəlası...

## Lerikdə məktəblilərə narkomaniyanın zərərləri haqda məlumat verilib



**Bu gün cəmiyyətimizin ən dəhşətli bəlası olan, gələcəyimizi böyük təhlükə qarşısında qoyan narkomaniyaya, eləcə də digər zərərli vərdişlərə qarşı hüquq-mühafizə orqanları tərəfindən qabaqlayıcı tədbirlər ardıcıl olaraq aparılır. Həmçinin, bu sahədə digər təşkilatlar da bir sıra mühüm işlər görürlər. Məqsəd insanların sağlamlığına zərər vuran bütün neqativ hallara son qoymaqdır.**

Təəssüf ki, bunlar ola-ola yenə də ölkədə narkotiklərə meyllliyinin artdığı müşahidə olunur və erkən nikaha gedənlər də vardır. Qorxulusu odur ki, narkomanların ən çoxunu gənclər təşkil edir. Hətta elələri var ki, yaşları 13-14 arasıdır.

Bu, olduqca ağır nəticədir, çünki xalqın, millətin sağlam özəyi onun gəncliyidir. Məhz buna görə, vaxtında insan həyatını məhvə aparan bu bəlalara son qoymaq üçün indiki dövrdə yeni istiqamətlərin, metodların tətbiqi zəruridir. Buna qoşulmaq isə, sadəcə, gələcəyini düşünən hər bir kəsin mənəvi borcudur.

Son vaxtlar Lerikin təhsil ocaqlarında maarifləndici tədbirlərin təşkilinə xüsusi olaraq üstünlük verilir. Növbəti belə tədbir şəhərin 3 saylı tam orta məktəbində baş tutdu. "Narkomaniya, erkən nikah və kibercinayətkarlıqla" mübarizə mövzusunda tədbirin təşkilatçıları Rayon İcra Hakimiyyəti, Polis Şöbəsi, Mədəniyyət Mərkəzi, eləcə Gənclər və İdman sektoru idi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin əməkdaşı Rafiq Əzizov, Lerik Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Ramil Mustafayev, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Müqəddəs Dənziyev, Gənclər və İdman sektorunun müdiri Natiq İsaqov, məktəbin yuxarı sinif şagirdləri, pedaqoji heyəti və valideynlər iştirak edirdilər.



Vətən yolunda canından keçib şəhidlik zirvəsinə ucalan ölməz qəhrəmanların əziz xatirəsinin bir dəqiqəlik sükutla anıldığı tədbirdə mövzu ilə bağlı film nümayiş olundu.

Daha sonra natiqlər mövzu haqqında danışdılar, narkomaniya və erkən nikahın fəsadları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verildi. Ən əsası isə o vurğulandı ki, ölkəmizdə başlıca vəzifə olan sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında narkomaniyanın qarşısının alınması və narkotiklərlə mübarizə mühüm yer tutur. Problemin həllinə xidmət edən addımlardan biri preventiv tədbirlərin görülməsi, o cümlədən vacib izahat işlərinin lazımi səviyyədə aparılmasıdır.

Eyni zamanda xüsusilə bildirildi ki, narkomanlığa, erkən nikah hallarına daha çox zəmin yaradan səbəblərdən birincisi təhsildən yayınmaqdır. Gənclərin təhsilə marağının artırılması, onların asudə vaxtını və əyləncə sisteminin səmərəli təşkili zərərli vərdişlərə "yox" demək üçün ən düzgün yoldur.

Tədbirdə mövzu ilə bağlı şagirdləri düşündürən suallara cavab verən Lerik Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Ramil Mustafayev dedi: "Hamı başa düşməlidir ki, narkomaniya, digər zərərli vərdişlər insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərini məhv edir. Bu cür ictimai təhlükəli əməllərlə birgə mübarizə aparmalı və sağlam, gözəl həyat naminə çalışmalıyıq".

**Zəfər ORUCOĞLU,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Lənkəranın çala-çuxur yolları...

**İndi Lənkəran camaatını ən çox narahat edən yol problemidir. Rayonda illərlə təmir üzü görməyən yollarda artıq hərəkət etmək qeyri-mümkündür. Lakin insanları eşidib, respublikamızın indiki dinamik inkişafda olduğu dövrdə onların narahatçılığına əncam çəkmək aidiyyəti qurumları düşündürmür.**

Hətta hər bir vətəndaşın rahatlığı, xoş güzəranı üçün çalışan dövlət rəhbərinin bu məqsəd üçün ayırdığı vəsait mənimsənilir. Nəticədə öz dövlətini sevən, onun başçısına ürəkdən inanan lənkəranlı rayonda səlahiyyət sahiblərin özbaşınalığı ucbatından dağılmış, artıq ömrünü başa vurmuş yollarda əziyyət çəkir. Halbuki, Prezident məmurlara vəzifə tapşıranda birinci növbədə onlardan insanlara layiqli xidmət göstərməyi tələb edir...



Lənkəran rayonunun Digah və Şilavar kəndlərini birləşdirən yol tam sıradan çıxıb. Bu yolun hazırda ciddi təmirə ehtiyacı var. Gün ərzində yoldan yüzlərlə vətəndaş istifadə edir. Asfaltı dağılmış, hər addımbaşı çuxurlar yaranmış yolda gediş-gəliş təhlükəlidir. Əksər hissəsində çalalar o qədər dərindir ki, yağan yağış suları yaya kimi qurumur. Payızı, qışı daha pis olur. Məcburiyyət qarşısında yola çıxan mənzil başına salamat çatacağına inanmır. Bir-iki dəfə yolda hərəkət edən təzə avtomobil dağılır...

Əhali bildirir ki, yaranmış vəziyyətlə əlaqədar aidiyyəti təşkilatlara müraciətlər olunub. Amma dağılmış yolu qaydaya salan yoxdur: "Əgər istəsələr, bu çox da çətin məsələ deyildir. Sadəcə rayonda ölkə rəhbərinin öz vətəndaşların rahat yaşaması naminə gördüyü işlərə kölgə salanlar vardır. Buna görə də yolun təmirindən ötrü artıq yerli məmurlardan heç nə gözləmirik. İndi ümid yerimiz yalnız xalqın böyük etimadını qazanaraq yenidən Prezident seçilən İlham Əliyevədir".

**Zəfər ORUCOĞLU**



# Bu gün Turan günüdür!

Hiss edirəm, təbi gəlir qəlbimin
Yazacam sözləri dəftərə min-min.
Əlinizdə qılınc, cilovu çəkin,
Bilgə xaqan dövlət quran günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Neçə ildir dilimiz qaldı susuz,
Parçalandıq qıpçaq, qarlıq və oğuz.
Haray çəksəm gələr hunqar, qaqauz,
Atillanın qılınc vuran günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Sizdə bilin milli ruhun qədrini,
Düşmən sınar Turan elin səbrini.
Pozacağıq rusun, farsın məkrini,
O düşmən ellərin viran günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Peyğəmbər də bilir türkün qüdrətin,
Adını çəkmişdir Sultan Mehmetin.
Dünyadakı sülhün və ədalətin
Qeyd şərtsiz bərpa olan günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Qan ağlayır şərqi Türküstan eli,
Kəsilir Uyğurun danışan dili.
Bilin ki, Turanın bükülməz beli,
Oğuz xanın çinli qıran günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Doxsanlarda qanlı şaxdı ildırım,
Meşə tuzaq, qayaları sıldırım.
Onlar etdi Xocalıya soyqırım,
Hər insanın bunu anan günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Qurban olum hər şəhidin qanına,
Bayraq sancıb, zəfər çalan anına.
Azərbaycan ucalıbdır şanına,
Haqq zülmdən sorğu soran günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Azad oldu yurdum, yuvam oylağım,
Hər daşında tarixlərdən qaynağım.
Dalğalandı Xankəndində bayrağım,
Separatizmin məğlub olan günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

Azəroğlu, Azərbaycan yazarı!
Təbriz, Ərdəbildir dərdi, azarı.
Gözlər bizi Qeysəriyyə bazarı,
Çapar Xorasana varan günüdür,
Əziz xalqım, bu gün Turan günüdür!

**Müəllif: Toğrul Azəroğlu**

* * *

# Azərbaycan əsgəri

*Uğurlu olsun hər vaxt diplomatın səfəri,*
*Siz bizə qazandırdız şanlı Aprel zəfəri.*
*Sənsən Giziroğlunun ucu haça şeşpəri,*
*Sənə güvənirəm mən, Azərbaycan əsgəri!*

*Sənsən istiqlalım, şanım, şöhrətim mənim,*
*Sənsən hürr yaşayan azad millətim mənim.*
*Ey mənim millətimin qoruyucu mələkləri,*
*Sənə güvənirəm mən, Azərbaycan əsgəri!*

**Müəllif: Toğrul Azəroğlu**